**DİQQƏT!**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

***QEYD:*** *Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 187 (6151) **22 oktyabr** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Zəngilan rayonunun Mincivan qəsəbəsi və 13 kəndi, Füzulinin 3, Cəbrayılın isə daha 5 kəndi işğaldan azad edildi!

**Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**SİA xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**

* * *

**Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**SİA xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**



## Hikmət Hacıyev: "Ermənistan danışıqlar yolu ilə münaqişənin həllində tamamilə maraqlı deyildir"



"Ermənistan Baş nazirinin münaqişənin diplomatik həlli yoxdur deyə açıqlaması növbəti dəfə onu nümayiş etdirir ki, Ermənistan danışıqlar yolu ilə münaqişənin həllində tamamilə maraqlı deyildir". SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

*Bax 4*

## Erməni kinorejissor: "Azərbaycanın ərazi bütövlüyünü qəbul etmək lazımdır"



*Bax 7*

"Artıq reallıqları qəbul etmək lazımdır. Qarabağ uğrunda mübarizədə erməni rəhbərliyi Ermənistanı itirməmək barədə də düşünməlidir. Bu, kifayət qədər çətin vəziyyətdir". SİA xəbər verir ki, bu sözləri Rossiya-1 telekanalında yayımlanan "Vladimir Solovyovla axşam" verilişinin efirində erməni əsilli rusiyalı kinorejissor, Rusiyanın xalq artisti Karen Şahnazarov deyib...

## "Azərbaycanın rəşadətli ordusu Ali Baş Komandanın rəhbərliyi ilə bu xain hücumun əvəzini döyüş meydanında çıxır"



*Bax 3*

Oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti Gəncədə erməni terrorundan əziyyət çəkən insanlarla görüşüb.

## Əli Əhmədov: "Azərbaycanın zəfər yürüşünün qarşısını alacaq ikinci bir qüvvə yoxdur"



**"Çox təəssüf ki, Gəncə şəhəri son günlərdə erməni terrorçularının hücumuna məruz qalıb. Gəncəyə edilən bu hücumlar ermənilərin mənfur xislətini, insani hisslərdən tamilə məhrum olduqlarını göstərir. Bu, həm də ağır hərbi cinayətdir"...**

*Bax 4*

## Rusiya mətbuatı: Ermənistan Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanı cəlb etmək cəhdlərini davam etdirir



*Bax 6*

Ermənistan Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanı cəlb etmək cəhdlərini davam etdirir. AZƏRTAC xəbər verir ki, bu barədə "News.ru" Rusiya portalında dərc olunan məqalədə deyilir. Materialda vurğulanır ki, erməni tərəfi...

## Almaniyanın "Deutsche Welle" telekanalında Ermənistanın Gəncəyə raket hücumu barədə reportaj yayımlanıb



Almaniyanın "Deutsche Welle" telekanalında "Dağlıq Qarabağ münaqişəsi: Gəncədəki matəm və qəzəb" adı ilə reportaj yayımlanıb...

*Bax 6*

## Erməni terroru və qətliamları...




*Bax 12*

## Ermənistanın hərb və sülh davranışlarındakı saxtakarlıqları



*Bax 13*

## UEFA millimizin və "Qarabağ"ın ev oyunları ilə bağlı qərarını açıqladı

*Bax 16*

***"Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və buna hazırlaşırdıq". Prezident İlham Əliyev bunu oktyabrın 19-da Rusiyanın "TASS" informasiya agentliyinə müsahibəsində atəşkəslə bağlı suala cavabında bildirib.***

# Azərbaycan haqq yolundadır və öz qanuni ərazilərini geri qaytaracaq!

## *Prezident İlham Əliyev: "Ermənistan vasitəçilərə və öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi"*



Ermənistan atəşkəs rejimini kobud şəkildə pozduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar həddsiz çox idi. Yeni Ermənistan atəşkəsi nümayişkəranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Azərbaycan Prezidenti qeyd edib ki, bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər: "İki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər".

### "Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib"

Dövlət başçısı bildirib ki, vəziyyətin hələ də qaynar fazada olması bizim təqsirimiz deyil: "Mən dəfələrlə demişəm ki, Azərbaycan nizamlama prinsiplərinə sadiqdir. Bu prinsiplər çoxillik danışıqlar prosesində işlənib hazırlanıb. Mən öz açıq çıxışlarım və bu günlərdə mətbuat nümayəndələri ilə əlaqələrim çərçivəsində təsdiq etmişəm ki, əgər Ermənistan danışıqlar məcrasında özünü konstruktiv apararsa, biz günü sabah hərbi əməliyyatları dayandırmağa hazırıq".

### "Milli uyuşmazlıqdan danışan Ermənistan prezidenti özünün faşist mahiyyətini nümayiş etdirib"

Dövlət başçısı onu da bildirib ki, Minsk qrupu nizamlama üçün bünövrə yaradıb: "Buraya ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin qaytarılması, kommunikasiyaların açılması, azərbaycanlı və erməni icmalarının birgə yaşayışı daxildir. Bu, beynəlxalq hüququn və ümumiyyətlə, bəşəri əxlaqın normalarına tamamilə uyğun gəlir. Çünki Ermənistan prezidentlərindən biri ermənilərin və azərbaycanlıların milli uyuşmazlığından danışarkən, o, bir daha özünün faşist mahiyyətini nümayiş etdirib".

Azərbaycan Prezidenti bildirib ki, Ermənistanın faşist niyyətli tezisləri, əlbəttə ki, nizamlamaya kömək etmirdi: "Niyə azərbaycanlılar və ermənilər Rusiyada sakit yaşaya, ümumi biznesə, qarışıq ailəyə sahib ola bilirlər? Niyə bəzi gürcü kəndlərində ermənilər və azərbaycanlılar bir yerdə yaşayır, həm müsəlman, həm də xristian bayramlarını qeyd edirlər? Niyə Azərbaycanda minlərlə erməni bizim vətəndaşlarımız kimi layiqli həyat yaşayır? Buna görə də bu cür faşist niyyətli tezislər, əlbəttə ki, nizamlamaya kömək etmirdi".

Prezident İlham Əliyev qeyd edib ki, bütün bu baza prinsipləri, üstəgəl kommunikasiyaların açılması nizamlamanın əsasıdır: "Minsk qrupunun həmsədrləri də Azərbaycanın mövqeyini dəstəkləyirlər, lakin Ermənistanın indiki rəhbərliyi başqa yolla getdi. Baş nazir bəyan edirdi ki, Azərbaycana bircə qarış da torpaq verməyəcəklər. Onlar qondarma "dqr" nın xəritələrini dərc edib, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil ediblər. Onlar bizim bütün şəhərlərimizin, kəndlərimizin adlarını dəyişiblər. Bizim döyüş meydanında gördüklərimiz, sadəcə, onların 30 il ərzində qurduqları müdafiə xəttini yarıb keçmək deyildi. Biz gördük ki, onlar bu əraziləri verməyə hazırlaşmırdılar. Ona görə ki, orada o qədər iş görülmüşdü, mühəndis kommunikasiyalarına, möhkəmləndici qurğulara o qədər sərmayə qoyulmuşdu ki, bu, onların həmin torpaqlardan çıxıb getməyə hazırlaşmadıqlarını göstərirdi".

### "Kompromis paketin bir hissəsi olan Laçın dəhlizi ilə bağlı mövqeyimizi bir daha təsdiqləyirik"

"Bizim mövqeyimiz həmişə çox konstruktiv olub və həmişə demişik ki, bəli, biz anlayırıq, insanlar arasında əlaqə olmalıdır və Laçın dəhlizi baza prinsiplərinin tərkib hissəsidir. Bununla bərabər, axı baza prinsiplərində yazılıb ki, təkcə Laçın dəhlizi deyil, bütün kommunikasiyalar, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyalar açılır. Erməni tərəfi bu dəhlizin təhlükəsizliyinə zəmanət təqdim etməli idi". Prezident İlham Əliyev bu barədə "TASS" informasiya agentliyinə müsahibəsində nizamlamanın ardıcıllığı barədə suala cavabında bildirib. Baza prinsiplərində Ermənistanla Azərbaycan arasında sərhəddə kommunikasiyaların açılmasının da nəzərdə tutulduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Həmçinin nəzərdə tutulurdu ki, Ermənistan Rusiya Federasiyasının ərazisinə maneəsiz yerüstü keçmək imkanına malik olacaq. Hazırda Ermənistan bu imkandan məhrum deyil, lakin bunu Azərbaycan ərazisindən keçməklə etmək qat-qat rahatdır və bu, hava şəraitindən, dağlarda qar yağmasından və sair məsələlərdən asılı deyil. Yəni, bütün bunlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsini, azərbaycanlı məcburi köçkünlərin qovulduğu bütün torpaqlara, təkcə yeddi rayona deyil, həm də Dağlıq Qarabağın ərazisinə, - münaqişə başlayana qədər orada yaşayan bütün əhalinin 25 faizi azərbaycanlılar idi, - qaytarılmasını nəzərdə tutan kompromis paketinin bir hissəsidir. Əlbəttə, Dağlıq Qarabağ ilə Ermənistan arasında Laçın dəhlizi vasitəsilə maneəsiz gediş-gəliş də nəzərdə tutulurdu. Biz bu mövqeyimizi bir daha təsdiq edirik".

### "Son anda onlar Kəlbəcər və Laçının qaytarılmasından imtina etdilər"

Dövlət başçısı bildirib ki, Ermənistanın keçmiş rəhbərliyi, bundan əvvəlki iki prezidenti ilə mənim əlaqələrim dövründə biz irəliyə çox böyük addımlar atmışdıq: "Biz razılaşdırılması, ümumiyyətlə, qeyri-mümkün görünən məsələlərin razılaşdırılmasında irəliyə getmişdik. Bütün bunlar nəticəyə nail olmaq istəyi və güzəşt yolu ilə nizamlanmaya doğru getmək arzusu əsasında idi. Müəyyən mərhələdə, nizamlamaya həddən artıq yaxınlaşdığımız vaxtda erməni tərəfinin geriyə addım atması başqa bir məsələdir. Bu, artıq faktdır, hərçənd onlar həmişə bizi bunda ittiham etməyə çalışırdılar. Lakin son anda onlar Kəlbəcər və Laçının qaytarılmasından imtina etdilər".

### "Ermənistana silah ötürülməsində erməni mənşəli rusiyalı iri sahibkarların və məşhur silah alverçilərinin əli var"

"Bizim tərəfimizdən heç bir ölkə münaqişəyə cəlb edilməyib, bizim tərəfimizdə heç bir terrorçu yoxdur. Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə, biz Rusiya tərəfinə belə bir narahatlığımızı çatdırmışdıq ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb". Prezident İlham Əliyev bu barədə "TASS" informasiya agentliyinə müsahibəsində bildirib.

Dövlətimizin başçısı deyib: "Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, - yeri gəlmişkən bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir".

Azərbaycan Prezidenti qeyd edib ki, Rusiya tərəfinə bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman etdiyimizi bildirmişik: "Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk Qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına inanmağımız çətindir. Bizdə olan məlumata görə, bu sxemdə erməni mənşəli rusiyalı iri sahibkarların əli var, bu məsələdə beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Bizim Rusiyaya müraciətimiz, o cümlədən bu məsələnin araşdırılmasına yönəlmişdi... Bizim bu cür narahatlığımız var və bizim narahatlığımız faktlara əsaslanır".

### "Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik"

"Bilirsiniz, mən Moskvada çox olmuşam. İndiki halda mən belə dəvət almamışam, ona görə bu sual mənə deyil. Dəfələrlə şəxsən Prezident Vladimir Vladimiroviç Putin və ondan əvvəl Dmitri Anatolyeviç Medvedev Ermənistan və Azərbaycan rəhbərləri arasında üçtərəfli görüşlər keçiriblər. Lakin Ermənistanda hakimiyyət şərti Sorosun əlinə keçəndən sonra bu cür əlaqələr dayandırıldı" deyən Prezident İlham Əliyev onu da deyib ki, Rusiya münaqişənin nizamlanmasında həmişə mühüm rol oynayıb və mən bu barədə demişəm, bunun üçün həm tarixi, həm də coğrafi xarakterli obyektiv səbəblər var: "Səbəblərdən biri də budur ki, Rusiya onilliklər boyu bizim regionda aktiv fəaliyyət göstərir və qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Buna görə də biz hər cür əlaqəyə hazırıq, yeri gəlmişkən, Xarici İşlər nazirlərinin görüşünün təşkil olunması barədə təklif gələn kimi biz dərhal razılaşdıq. Bu da bizim mövqeyimizin göstəricisidir. Axı, o vaxt Azərbaycan Ordusu strateji ərazilərin bir hissəsini artıq uğurla azad etmişdi və bu, münaqişənin təqribən on gündən çox davam etdiyi vaxt baş vermişdi. Kimin nəyə qadir olması praktik olaraq artıq hamıya aydın idi. Döyüş əməliyyatlarının sonrakı gedişatını təxmin etmək, yəqin ki, çox çətin deyildi. Lakin buna baxmayaraq, biz vaxtı uzatmadıq və ya imtina etmədik". Prezident İlham Əliyev deyib: "Biz qarşıdurmaya son qoymaq və nizamlama yollarını tapmaq üçün Moskvada və ya hər hansı başqa bir yerdə görüşməyə həmişə hazırıq. Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik".

**RƏFİQƏ KAMALQIZI**

# “Azərbaycanın rəşadətli ordusu Ali Baş Komandanın rəhbərliyi ilə bu xain hücumun əvəzini döyüş meydanında çıxır”

*Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti Gəncədə erməni terrorundan əziyyət çəkən insanlarla görüşüb*











***Oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti Gəncədə erməni terrorundan əziyyət çəkən insanlarla görüşüb.***

Nümayəndə heyəti cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayətin izləri ilə tanış olub, dağılmış evlərə və mülki obyektlərə baxıb.

Nümayəndə heyəti həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış yaşayış binasının və evlərin ətrafına gül düzüblər.

Sakinlərlə görüşən Baş Nazirin müavini bildirib ki, dağılan evlər yenidən qurulacaq. Prezident İlham Əliyev bununla bağlı bütün tapşırıqları verib.

“Ermənilər dinc sakinlərə, uşaqlara, yuxuda olan insanlara atəş açırlar. Bu, insanlığa qarşı cinayətdir. Düşmən bir daha öz qatil simasını göstərdi. Azərbaycan dövləti düşmənin hər bir təxribatına layiqincə cavab verir. Azərbaycanın rəşadətli ordusu Ali Baş Komandanın rəhbərliyi ilə bu xain hücumun əvəzini döyüş meydanında çıxır. Azərbaycan əsgəri qadına, uşağa, qocaya əl qaldırmır, bundan sonra da qaldırmayacaq. Gəncə hadisələrini törədən Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Onlar bu xain hərəkətlərinin ağır nəticələrini görürlər və görəcəklər. Onlar Azərbaycan xalqının və Ordusunun ən ağır cəzasını alacaqlar”, - deyə o qeyd edib.

Görüşdə vurğulanıb ki, Gəncədə erməni terroru nəticəsində valideynlərini itirmiş uşaqlara Yeni Azərbaycan Partiyası tərəfindən təqaüd veriləcək.

Xatırladaq ki, ermənilərin Gəncədə törətdiyi sonuncu terror oktyabrın 17-də olub. Gəncənin mərkəzi hissəsinin raket atəşinə tutulması nəticəsində 14 nəfər həlak olub, 50-dən çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Həlak olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var.

Ermənistan ordusunun oktyabrın 11-də törətdiyi faciə zamanı isə Gəncədə 5-i qadın olmaqla, 10 nəfər həlak olmuşdu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla, 34 nəfər yaralanmışdı.

Əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyır. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması isə insanlığa qarşı cinayətdir.

# YAP Gəncə şəhər təşkilatının gəncləri balaca Xədicəyə dəstək olublar





Sentyabrın 27-də cəbhədə döyüşlərin başladığı vaxtdan minlərlə Azərbayacanlı gənclər kimi YAP Gəncə şəhər təşkilatının fəal gəncləri, könüllüləri arxa cəbhədə Vətən qarşısında borclarını yerinə yetirməyə çalışır,əllərindən gələn köməklikləri əsirgəmirlər. Onlar şəhər sakinləri arasında təbliğat və maarifləndirici tədbirlərin həyata keçirilməsində, düşmənin informasiya təxribatlarının qarşısının alınmasında, Vətən uğrunda canlarından keçən şəhidlərin dəfnində, ağır artilleriya və raket atəşinə tutulmuş, yaşayış yerlərini müvəqqəti tərk etmək məcburiyyətində qalmış və müəyyən təhlükəsiz yerlərdə yerləşdirilmiş uşaq, qadın və qocalara humanitar kömək göstərilməsində, onlara dərman, gigyenik vasitələri paylanmasında, ərzaqla təmin edilməsində gənclər böyük ruh yüksəkliyi ilə iştirak edirlər.

İşğalçı Ermənistan ordusunun raket zərbələri nəticəsində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının yerlə yeksan edildiyi, dinc sakinlərin qətlə yeirildiyi, yaralandığı hər terror aktında YAP Gəncə şəhər təşkilatının gəncləri ziyan görmüş mülki vətəndaşların, gözü yaşlı saknlərin yanında olub, onlara dəstək olmağa çalışıblar.

Bu dəfə gənclər oktyabrın 17-də erməni silahlılarının Gəncəyə atdığı raket zərbəsindən həlak olan Şahnəzorovlar ailəsindən yeganə sağ qalan balaca Xədicəyə baş çəkiblər.

Gənclər gördükləri dəhşətdən hələ də özünə gələ bilməyən balaca Xədicəyə müxtəlif oyuncaqlar, gəlinciklər hədiyyə edərək, körpəyə maddi və mənəv dəsək olmağa çalışıblar. Qeyd edək ki, həmin gecə Xədicə Şahnəzərovanın atası, anası və yaşyarımlıq bacısı Mədinə erməni vandalizminin qurbanı olub.



# Hikmət Hacıyev: “Ermənistan danışıqlar yolu ilə münaqişənin həllində tamamilə maraqlı deyildir”




“Ermənistan Baş nazirinin münaqişənin diplomatik həlli yoxdur deyə açıqlaması növbəti dəfə onu nümayiş etdirir ki, Ermənistan danışıqlar yolu ilə münaqişənin həllində tamamilə maraqlı deyildir”. SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. O bildirib ki, bu açıqlama ilə Ermənistan rəhbərliyi özü etiraf edir ki, Ermənistanın məqsədi Azərbaycanın işğal olunmuş ərazilərini işğal altında saxlamaqdır: “Bununla, rəsmi Yerevanın münaqişənin danışıqlar yolu ilə həlli barədə açıqlamalarının riyakarlıqdan başqa bir şey olmadığı bir daha öz təsdiqini tapmış olur.

Ermənistanın baş naziri məsuliyyətsiz şəkildə və öz siyasi ambisiyaları naminə bütün mülki hakimiyyət orqanlarını, mülki insanları total silahlanmaya çağıraraq hərbi əməliyyatlara sövq edir. Ermənistanın bu rəsmi mövqeyi humanitar atəşkəs rejiminin kimin tərəfindən pozulmasını sübut edir və regionda vəziyyətin daha da gərginləşməsinə xidmət edir. Azərbaycanın Gəncə şəhərini SCUD tipli ballistik raketlərlə, digər şəhər və rayonların sakinlərini raket və artilleriya ilə daim atəşə tutmaq barədə əmr verən şəxs tərəfindən bu kimi açıqlamanın verilməsi əslində təəccüb doğurmamalıdır.

Ermənistan baş nazirinin bu açıqlaması iki ölkənin xarici işlər nazirlərinin Rusiyanın təşəbbüsü ilə Moskvaya işgüzar səfərindən dərhal sonraya və ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda xarici işlər nazirləri səviyyəsində keçiriləcək görüşdən öncəyə təsadüf edir. Prezident İlham Əliyev tərəfindən beynəlxalq mediaya verdiyi son müsahibələrində və açıqlamalarında Azərbaycanın danışıqlara və münaqişənin diplomatik yollarla həllinə hazırlığını dəfələrlə bəyan etmişdir. Azərbaycanın münaqişənin həlli ilə bağlı konstruktiv mövqeyinin fonunda beynəlxalq ictimaiyyət, xüsusilə ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri Ermənistan rəhbərliyinin bu açıqlamasından nəticə çıxarmalıdır. Ermənistan rəhbərliyinin bu açıqlaması eyni zamanda münaqişənin diplomatik yolla həlli istiqamətində beynəlxalq ictimaiyyət tərəfindən atılan addımlara hörmətsizlikdir. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən mövcud yol xəritəsinə uyğun olaraq münaqişənin danışıqlar yolu ilə həllini dəstəkləyir”.

# Əli Əhmədov: “Azərbaycanın zəfər yürüşünün qarşısını alacaq ikinci bir qüvvə yoxdur”

**“Çox təəssüf ki, Gəncə şəhəri son günlərdə erməni terrorçularının hücumuna məruz qalıb. Gəncəyə edilən bu hücumlar ermənilərin mənfur xislətini, insani hisslərdən tamilə məhrum olduqlarını göstərir. Bu, həm də ağır hərbi cinayətdir”. APA-nın yerli bürosunun xəbərinə görə, bunu Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədov jurnalistlərə bildirib.**




Onun sözlərinə görə, Azərbaycanın rəşadətli ordusu Ali Baş Komandanın rəhbərliyi ilə bu xain hücumun əvəzini döyüş meydanında çıxır: “Azərbaycan əsgəri qadına, uşağa, qocaya əl qaldırmır, bundan sonra da qaldırmayacaq. Gəncə hadisələrini törədən Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Onlar bu xain hərəkətlərinin ağır nəticələrini görürlər və görəcəklər. Onlar Azərbaycan xalqının və Ordusunun ən ağır cəzasını alacaqlar.

Güman edirəm ki, Azərbaycan hökuməti bu hərəkəti törədənlərin, xüsusilə də əmri verən Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüquq normaları əsasında cavab verməleri üçün əlindən gələni edəcək. Bizim üçün ən böyük itki həlak olan insanlardır. Onları geri qaytarmaq mümkün deyil. Azərbaycan həkimləri qısa zamanda yaralıları həyata qaytaracaqlar. Hesab edirəm ki, bu günlərdə Gəncə şəhəri və gəncəlilər böyük dəyanət nümayiş etdirdilər. Düşmənin niyyəti azərbaycanlıları qorxutmaq, vahiməndirmək idi, lakin onlar buna nail olmadılar. Gəncəlilərin timsalında Azərbaycan xalqının nə qədər qəhrəman xalq olduğu aydın oldu. Azərbaycanın zəfər yürüşünün qarşısını alacaq ikinci bir qüvvə yoxdur”.

# YAP Gəncədə raket hücumu zamanı valideynlərini itirmiş uşaqların hər birinə 300 manat təqaüd verəcək

Gəncədə terror hadisələri zamanı zərər çəkmiş ailələrə yardım göstəriləcək. “İki sahil” xəbər verir ki, APA-nın yerli müxbirinin sözlərinə görə, Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi Əli Əhmədov jurnalistlərə açıqlamasında bildirib ki, valideynlərini itirmiş uşaqların hər birinə YAP tərəfindən gələn aydan etibarən 300 manat müqabilində təqaüd təyin edilib. Bu, həmin uşaqlar böyüyənə qədər davam edəcək.

# XİN: Ermənistan rəhbərliyi məsuliyyətsiz bəyanatları və əməlləri ilə öz xalqını uçuruma sürükləyir



Ermənistanın baş naziri Nikol Paşinyan “münaqişənin diplomatik həlli yoxdur” deyə açıqlama ilə çıxış edərək Ermənistanın işğalçı siyasətini davam etdirdiyini və bu ölkənin hazırkı rəhbərliyinin münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını açıq şəkildə etiraf etmiş oldu. AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, Ermənistanın Azərbaycana qarşı yeni hücumuna cavab olaraq Azərbaycanın başladığı əks-həmlə tədbirləri və on illərdir ki, işğal altında olan ərazilərin Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilməsi ilə bağlı davamlı olaraq atəşkəs üçün yalvaran, iki dəfə humanitar atəşkəs razılaşdırıldıqdan sonra atəşin dayandırılması rejimini kobud şəkildə pozan Ermənistanın əsl niyyətinin sülhə nail olmaq deyil, yeni işğala əl atmaq olduğu baş nazirin verdiyi bu açıqlamada aydın şəkildə görünür. Humanitar atəşkəsə riayət olunması üçün vasitəçi ölkələrin səylərini heçə sayan Ermənistan rəhbərliyinin Moskvada xarici işlər nazirləri ilə həyata keçirilən məsləhətləşmələr, habelə Vaşinqtonda qarşıdan gələn görüşlər ərəfəsində diplomatik səylərə xələl gətirən bu bəyanatı uzun illərdir ki, işğalçı Ermənistan tərəfindən münaqişənin həll olunmaması ilə bağlı sərgilədiyi dağıdıcı mövqeyin növbəti bariz nümunəsidir.

Azərbaycan tərəfi, öz növbəsində xoş niyyət və konstruktivlik nümayiş etdirərək humanitar atəşkəsə iki dəfə razılıq verib və münaqişənin BMT TŞ-nin qətnamələri əsasında danışıqlar yolu ilə həllini dəstəklədiyini bəyan edib. Belə olduğu təqdirdə, bir tərəfdən işğalçı və münaqişənin diplomatik həllində maraqlı olmayan Ermənistan, digər tərəfdən isə əraziləri 30 ilə yaxın müddətdə işğal altında olan və beynəlxalq hüquq normaları çərçivəsində və BMT qətnamələri əsasında münaqişənin siyasi həllini dəstəkləyən Azərbaycana münasibətdə eyni yanaşma nümayiş etdirən dövlətləri müvafiq nəticə çıxarmağa dəvət edirik.

Üzərində hər hansı təzyiq hiss etməyən və Azərbaycana qarşı təcavüz siyasəti çərçivəsində bu günədək törətdiyi çoxsaylı müxtəlif cinayət əməllərinə görə hüquqi məsuliyyətə cəlb edilməyən Ermənistan rəhbərliyi verdiyi məsuliyyətsiz bəyanatları və törətdiyi əməlləri ilə öz xalqını uçuruma sürükləyir. Münaqişənin davamlı həllinin və bölgədə gərginliyin aradan qaldırılmasının yeganə yolu beynəlxalq hüququn aliliyi, dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı və onlara hörmətin təmin edilməsi ilə mümkündür.

## Özbəkistan səfiri: Mən Gəncədə gördüklərimdən çox sarsıldım



Özbəkistanın Azərbaycandakı səfiri Baxrom Aşrafxanov Ermənistanın raket hücumlarına məruz qalan Gəncə şəhərinə və bir sıra rayonlara səfərinin nəticələrinə dair bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, səfir həmkarları ilə bir neçə dəfə Gəncə şəhərinə və bir sıra rayonlara səfər etdiyini bildirib. Səfirin “Region Plus” jurnalında yayılan bəyanatında deyilir: “Bu səfərlər zamanı mən raket zərbələrinin ağır nəticələrini öz gözlərimlə gördüm. Gördüyüm hər şeydən sarsılmışam: ən kədərlisi odur ki, günahsız insanlar həlak olur”.

Diplomat qeyd edib ki, Gəncəyə vurulan raket zərbələri nəticəsində qurbanların sayının daha çox olmasının qarşısının alınmasına Azərbaycanın müvafiq səlahiyyətli orqanlarının, o cümlədən evlərin dağıntıları altından sakinləri xilasetmə əməliyyatları təşkil edən Fövqəladə Hallar Nazirliyinin operativ reaksiya verməsi sayəsində nail olunub.

Səfir qeyd edib ki, Özbəkistan Ali Məclisinin Qanunverici Palatasının rəhbərliyi Dağlıq Qarabağ ətrafında silahlı qarşıdurma və xüsusilə Azərbaycanın dinc əhalisi arasında insan itkiləri ilə əlaqədar narahatlığını ifadə edib. “Özbəkistanın prinsipial mövqeyini yenidən təsdiq etmək istərdim. Bu mövqe BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə uyğun olaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə şərtsiz riayət etməklə Dağlıq Qarabağ münaqişəsinin tez bir vaxtda həllinin zəruriliyindən ibarətdir”, - deyə B.Aşrafxanov bildirib. Səfir həlak olanların yaxınlarına başsağlığı verib, yaralananlara tezliklə sağalmalarını diləyib.

## Ermənistanın növbəti PUA-sı məhv edilib



Ermənistan silahlı qüvvələrinin PUA-sı məhv edilib. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, oktyabrın 21-də saat 12.00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilib.

# İndiyədək işğaldan azad edilmiş Azərbaycan torpaqları







27.09.20 Qaraxanbəyli (Füzuli)
27.09.20 Qərvənd kəndi (Füzuli)
27.09.20 Kənd Horadiz (Füzuli)
27.09.20 Aşağı Əbdülrəhmanlı (Füzuli)
27.09.20 Yuxarı Əbdülrəhmanlı (Füzuli)
27.09.20 Böyük Mərcanlı (Cəbrayıl)
27.09.20 Nüzgar kəndi (Cəbrayıl)
27.09.20 Murovdağı zirvəsi
03.10.20 Suqovuşan (Madagiz-Ağdərə)
03.10.20 Talış kəndi (Tərtər)
3.10.20 Mehdili kəndi (Cəbrayıl)
03.10.20 Çaxırlı kəndi (Cəbrayıl)
03.10.20 Aşağı Maralyan (Cəbrayıl)
03.10.20 Şəybən kəndi (Cəbrayıl)
03.10.20 Quycaq kəndi (Cəbrayıl)
04.10.20 Cəbrayıl şəhəri
04.10.20 Daşkəsən kəndi (Cəbrayıl)
04.10.20 Decal kəndi (Cəbrayıl)
04.10.20 Karxulu kəndi (Cəbrayıl)
04.10.20 Şükürbəyli kəndi (Cəbrayıl)
04.10.20 Çərəkən kəndi (Cəbrayıl)
04.10.20 Horovlu kəndi (Cəbrayıl)
04.10.20 Mahmudlu kəndi (Cəbrayıl)
04.10.20 Cəfərabad kəndi (Cəbrayıl)
04.10.20 Yuxarı Maralyan (Cəbrayıl)
05.10.20 Şıxəli Ağalı kəndi (Cəbrayıl)
05.10.20 Sarıcalı kəndi (Cəbrayıl)
05.10.20 Mərzə kəndi (Cəbrayıl)
09.10.20 Hadrut qəsəbəsi (Xocavənd)
09.10.20 Çaylı kəndi (Tərtər)
09.10.20 Yuxarı Güzlək (Füzuli)
09.10.20 Gorazıllı kəndi (Füzuli)
09.10.20 Qışlaq kəndi (Cəbrayıl)
09.10.20 Qaracallı kəndi (Cəbrayıl)
09.10.20 Süleymanlı kəndi (Cəbrayıl)
09.10.20 Əfəndilər kəndi (Cəbrayıl)
09.10.20 Sur kəndi (Xocavənd)
14.10.20 Qaradağlı (Füzuli)
14.10.20 Xatunbulaq (Füzuli)
14.10.20 Qarakollu (Füzuli)
14.10.20 Bulutan (Xocavənd)
14.10.20 Məlikcanlı (Xocavənd)
14.10.20 Kəmərtük (Xocavənd)
14.10.20 Təkə (Xocavənd)
14.10.20 Tağaser (Xocavənd)
15.10.20 Arış (Füzuli)
15.10.20 Doşulu (Cəbrayıl)
15.10.20 Edişə (Xocavənd)
15.10.20 Düdükçü (Xocavənd)
15.10.20 Edilli (Xocavənd)
15.10.20 Çiraquz (Xocavənd)
16.10.20 Xırmancıq (Xocavənd)
16.10.20 Ağbulaq (Xocavənd)
16.10.20 Axullu (Xocavənd)
17.10.20 Qoçəhmədli (Füzuli)
17.10.20 Çimən (Füzuli)
17.10.20 Cuvarlı (Füzuli)
17.10.20 Pirəhmədli (Füzuli)
17.10.20 Musabəyli (Füzuli)
17.10.20 İşıqlı (Füzuli)
17.10.20 Dədəli (Füzuli)
17.10.20 Füzuli şəhəri
19.10.20 Soltanlı (Cəbrayıl)
19.10.20 Əmirvarlı (Cəbrayıl)
19.10.20 Maşanlı (Cəbrayıl)
19.10.20 Həsənli (Cəbrayıl)
19.10.20 Əlikeyxanlı (Cəbrayıl)
19.10.20 Qumlaq (Cəbrayıl)
19.10.20 Hacılı (Cəbrayıl)
19.10.20 Göyərçinveysəlli (Cəbrayıl)
19.10.20 Niyazqullar (Cəbrayıl)
19.10.20 Keçəl Məmmədli (Cəbrayıl)
19.10.20 Şahvəlli (Cəbrayıl)
19.10.20 Hacı İsmayıllı (Cəbrayıl)
19.10.20 İsaqlı (Cəbrayıl)
20.10.20 Dördçinar (Füzuli)
20.10.20 Kürdlər (Füzuli)
20.10.20 Yuxarı Əbdürrəhmanlı (Füzuli)
20.10.20 Qarğabazar (Füzuli)
20.10.20 Aşağı Veysəlli (Füzuli)
20.10.20 Yuxarı Aybasanlı (Füzuli)
20.10.20 Sarahşa (Cəbrayıl)
20.10.20 Həsənqaydı (Cəbrayıl)
20.10.20 Füğanlı (Cəbrayıl)
20.10.20 İmambağrı (Cəbrayıl)
20.10.20 Daşveysəlli (Cəbrayıl)
20.10.20 Yarəhmədli (Cəbrayıl)
20.10.20 Ağcakənk (Xocavənd)
20.10.20 Mülkidərə (Xocavənd)
20.10.20 Daşbaşı (Xocavənd)
20.10.20 Günəşli (Xocavənd)
20.10.20 Vəng - bundan sonra Çinarlı adlandırılsın. (Xocavənd)
20.10.20 Havalı (Zəngilan)
20.10.20 Zərnəli (Zəngilan)
20.10.20 Məmmədbəyi (Zəngilan)
20.10.20 Həkəri (Zəngilan)
20.10.20 Şərifan (Zəngilan)
20.10.20 Muğanlı (Zəngilan)
20.10.20 Zəngilan şəhəri (Zəngilan)





# Almaniyanın “Deutsche Welle” telekanalında Ermənistanın Gəncəyə raket hücumu barədə reportaj yayımlanıb









*Almaniyanın “Deutsche Welle” telekanalında “Dağlıq Qarabağ münaqişəsi: Gəncədəki matəm və qəzəb” adı ilə reportaj yayımlanıb.*

AZƏRTAC xəbər verir ki, reportajda Qarabağ uğrunda gedən döyüşlərin ətraf ərazilərdə getdikcə daha çox mülki şəxsi əhatə etdiyi bildirilir. Telekanalın müxbiri Yulia Hahn Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədən hazırladığı reportajda oktyabrın 17-nə keçən gecə raket atəşi nəticəsində dağılan yaşayış massivinə baş çəkib. Alman jurnalist raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları arasında sakinlərlə söhbət edib. Evi tamamilə dağılmış Gəncə sakini Rəqibə Quliyeva gecə baş verən hadisədən danışır. O, vaxtilə çoxlu yaşayış evinin olduğu məhəllənin raket atəşi nəticəsində viran qaldığını söyləyir. Videokadrlardan da görünür ki, gəncəli xanım dağıntılar arasında öz ev əşyalarını tanıyır və onları toplamağa çalışır.

Jurnalist həmin qanlı gecədə həlak olmuş 13 sakinin xatirəsinə hazırlanan anım guşəsinə də baş çəkir. Qeyd edilir ki, Gəncə sakinləri raket zərbəsi nəticəsində həlak olanların xatirəsini yad etmək üçün məhz buraya baş çəkir, gül dəstələri və öldürülən uşaqlara görə oyuncaqlar gətirirlər. Guşədəki lövhələrdə sakinlər bu hadisənin günahkarını da qeyd ediblər: Ermənistan ordusu.

Y.Hahn bildirir ki, Dağlıq Qarabağdan onlarla kilometr uzaqda yerləşən Gəncənin sakinləri müharibənin birbaşa onları da ağuşuna alacağını heç ağıllarına belə gətirməzdilər. Lakin ötən həftəsonu şəhərin bu məhəlləsindəki evlər dağıldıqdan sonra artıq hamıya aydındır ki, bu münaqişə istənilən zaman və bütün istiqamətlər üzrə kəskinləşə bilər.

Gəncənin mərkəzində sakinlərlə müsahibələr əsasında insanların vətənpərvər ruhda olduqları, onların Azərbaycan Silahlı Qüvvələrinə inandıqları qeyd edilir. Sakinlər döyüşlərdə iştirak üçün könüllü yazıldıqlarını, düşməndən qorxmadıqlarını, Vətən üçün candan keçməyə hazır olduqlarını və tezliklə Azərbaycan bayrağının Dağlıq Qarabağda dalğalacanağına inandıqlarını söyləyirlər.

Yekunda isə qeyd edilir ki, Gəncəyə olan hücumlardan sonra Azərbaycanın özünümüdafiə hüququndan istifadə etməyə tam haqqı çatır. Bu fikri bütün şəhər sakinləri, eləcə də dağılmış evinin qalıqları arasında özünə yeni gün-güzəran qurmalı olacaq Rəqibə Quliyeva söyləyir.

## General-polkovnik Məhərrəm Əliyev “Twitter”də paylaşımlar edib




Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev “Twitter” sosial şəbəkəsi hesabında Azərbaycan Ordusunun Qarabağ cəbhəsində əldə etdiyi uğurları və qələbələrindən bəhs edən paylaşım edib.

Qazanılan qələbə və zəfərlərin təməlində Ali Baş Komandan İlham Əliyev cənablarının qətiyyəti və dönməz iradəsinin dayandığını vurğulayan general-polkovnik qeyd edib ki, üçrəngli bayrağımızın Şuşada və Xankəndində dalğalanacağı gün yaxındadır.

“Üçrəngli bayrağımızı işğaldan azad edən ərazilərimizdə qürurla yüksəldən qəhrəman hərbçilərimiz zəfər yürüşlərini əzmlə davam etdirirlər. Düşmən xofdadır, qorxudadır və döyüş meydanından qaçır. Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!”, paylaşımını edən Prezidentin hərbi məsələlər üzrə köməkçisi digər paylaşımında yazıb: “Azərbaycanın rəşadətli Ordusunun Qarabağ cəbhəsində qazandığı qələbələri cənab Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, sarsılmaz iradəsinin nəticəsidir!!!”.

# Rusiya mətbuatı: Ermənistan Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanı cəlb etmək cəhdlərini davam etdirir




***Ermənistan Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanı cəlb etmək cəhdlərini davam etdirir. AZƏRTAC xəbər verir ki, bu barədə “News.ru” Rusiya portalında dərc olunan məqalədə deyilir. Materialda vurğulanır ki, erməni tərəfi Qarabağda baş verənləri müsəlman və xristian dünyasının qarşıdurması kimi təqdim etməyə cəhd göstərir, lakin hadisələrin bu cür stereotip mənzərəsi əsla ağlabatan deyil. Məqalədə xatırladılır ki, ötən həftə erməni tərəfi Azərbaycanı Şuşadakı Müqəddəs Xilaskar İsa Məbədinin atəşə tutulmasında ittiham edib.***

Müəllif yazır: “Hər şeydən əvvəl Şuşadakı məbədə zərbənin qəsdən endirilməsini sübut etmək qeyri-mümkündür. Kilsə döyüş əməliyyatları zonasında yerləşir, buna görə də oraya mərmilərin təsadüfən düşməsini istisna etmək olmaz. Eyni zamanda, Ermənistan Azərbaycanın sərhəddən uzaqda yerləşən Gəncə, Tərtər və Mingəçevir şəhərlərini operativ-taktiki raket komplekslərindən atəşə tutmaqdan xəcalət çəkmir. Bu hücum dinc sakinlərin ölümü ilə nəticələnir. Belə hərəkətlərin məqsədi aşkardır - Bakını bilavasitə Ermənistan ərazilərini atəşə tutmağa təhrik etmək və bununla da Yerevanın Moskvadan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində müdafiə istəməsinə şərait yaratmaq”.

Materialda deyilir ki, erməni tərəfinin münaqişəyə Rusiyanı cəlb etmək niyyəti iflasa uğrayandan sonra təkcə münaqişəni beynəlmiləlləşdirmək cəhdləri deyil, həm də dini etiqad amilindən istifadə cəhdləri kimi digər alətlər işə düşür: “Qarabağda baş verənlər erməni KİV-ləri və lobbiçiləri tərəfindən Azərbaycan və Türkiyə müsəlman ittifaqının “qardaş xristian xalqına” toxunan döyüş əməliyyatları kimi, bəzən də hətta sünni Türkiyənin şiə İrana qarşı mübarizəsi kimi təqdim edilir. Mütəxəssislər üçün bu tezislər absurd görünür: tanınmış rusiyalı islamşünas Aleksey Malaşenkonun qeyd etdiyi kimi, “Qarabağ münaqişəsində şiə-sünni qarşıdurması barədə ideyanın müəllifinə müdriklərin kitablarını daha çox oxumağı məsləhət görmək olardı”.

Məqalədə qeyd edilir ki, Azərbaycan, hətta onun sakinlərinin 90 faizindən çoxunun özlərini müsəlman hesab etməsi faktı nəzərə alınsa belə, dünyəvi dövlətdir. Bakı bütün konfessiyalara, o cümlədən xristianlara qarşı dözümlülüyü vurğulayır. 1998-ci ildə Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası yenidən qurulub, pravoslav mənbələrin təsdiqlədiyi kimi, o vaxtdan Yeparxiya hakimiyyət orqanları ilə, o cümlədən məbədlərin bərpası və yenidən qurulması sahəsində səmərəli əməkdaşlıq edir. “Ekspertlər vurğulayırlar ki, Yerevanın dini ziddiyyətlərdən istifadə etmək cəhdləri münaqişənin dinc yolla həllini yalnız uzaqlaşdırır. Bu münaqişə təbliğatçı məqsədlərə deyil, beynəlxalq hüquqa əsaslanaraq həll olunmalıdır. Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov da bununla razıdır. Nazir bu günlərdə hər iki tərəfi ilk növbədə dinc nizamlama perspektivlərini məhv edən qarşıdurma ritorikasından imtina etməyə çağırıb”, - deyə müəllif sonda bildirib.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyə Xarici İşlər Nazirliyində görüş keçirib





Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) dəvəti əsasında Ankara şəhərinə səfəri davam edir. AZƏRTAC xəbər verir iki, Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü, partiyanın Türkiyə və AKP üzrə əlaqələndirici koordinatoru Ramil Həsənin rəhbərlik etdiyi heyətə Azərbaycan parlamentinin digər deputatı, YAP Siyasi Şurasının üzvü Ramin Məmmədov daxildir.

Türkiyə Xarici İşlər nazirinin müavini Yavuz Səlim Kıran ilə keçirilən görüşdə iki qardaş ölkənin beynəlxalq təşkilatlar və xarici ölkələrdəki diplomatik nümayəndəliklərimiz çərçivəsində birgə fəaliyyət imkanları müzakirə olunub. Vurğulanıb ki, Azərbaycan və Türkiyə həqiqətlərinin dünya birliyinə olduğu kimi çatdırılmasında hər iki ölkənin parlamentariləri ilə diplomatlarının koordinasiyalı fəaliyyəti səmərəli nəticə verər.

Görüşdə, həmçinin Milli Ordumuzun cəbhə xəttində qazandığı böyük uğurlar və Azərbaycanın haqq işində Türkiyənin verdiyi mənəvi dəstək yüksək dəyərləndirilib. Türk diplomatlarını amansızcasına qətlə yetirən erməni terrorçularının cinayətlərindən bəhs olunub, Ermənistanın terrorçu fəaliyyətinin qarşısının alınması istiqamətində görülən işlərin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

# Erməni kinorejissor: "Azərbaycanın ərazi bütövlüyünü qəbul etmək lazımdır"



"Artıq reallıqları qəbul etmək lazımdır. Qarabağ uğrunda mübarizədə erməni rəhbərliyi Ermənistanı itirməmək barədə də düşünməlidir. Bu, kifayət qədər çətin vəziyyətdir". SİA xəbər verir ki, bu sözləri Rossiya-1 telekanalında yayımlanan "Vladimir Solovyovla axşam" verilişinin efirində erməni əsilli rusiyalı kinorejissor, Rusiyanın xalq artisti Karen Şahnazarov deyib.

O, çıxışı zamanı Ermənistan rəhbərliyini reallığa uyğun addımlar atmamaqda, illuziyalara qapılmaqda və vəziyyəti düzgün qiymətləndirməməkdə günahlandırıb. Həmçinin kinorejissor Ermənistanın Azərbaycanın ərazi bütövlüyü məsələsini diqqətə almalı olduğunu da vurğulayıb. "Təəssüf ki, bütün bu baş verənlər Ermənistan rəhbərliyinin düşünülməmiş atılan addımlarının nəticəsidir. Vəziyyət elədir ki, istər-istəməz Azərbaycanın ərazi bütövlüyü məsələsini qəbul etmək və hər hansı bir status üçün imkan axtarmaq lazımdır, hansı ki, erməni əhalinin bu bölgədə təhlükəsizliyini, yaşayışını və mədəni inkişafını təmin eləsin. Başqa çıxış yolu yoxdur", - deyə Şahnazarov qeyd edib.

Tanınmış kinorejissor həmçinin vurğulayıb ki, Rusiyanın hazırkı münaqişəyə müdaxilə etməyə heç bir əsası yoxdur.

"Qarabağı Abxaziya, Cənubi Osetiya və Donbassla müqayisə etmək olmaz. Onlar Rusiya ilə sərhəddirlər. Qarabağ Azərbaycan ərazisində yerləşir. Bundan əlavə sözügedən 2 rayon da Azərbaycana aiddir. Bu gün Rusiyanın bu məsələyə qarışması üçün heç bir real hüquqi imkanı yoxdur", deyə Karen Şahnazarov fikirlərini gizlətməyib. Vladimir Solovyov çıxışın bu hissəsinə müdaxilə edərək Şahnazarovun sözünə dəstək olaraq, bu məsələdə heç bir "soyqırım" təhlükəsinin olmadığını da vurğulayıb. Karen Şahnazarov Azərbaycan Prezidenti İlham Əliyevin münaqişə ilə bağlı çıxışlarına da toxunub. "Necə yanaşmanızdan asılı olmayaraq Azərbaycan Prezidenti çox qətiyyətli çıxış edir! O, daim ermənilər və azərbaycanlıların birlikdə yaşayacağını deyir. Bilirsiniz, situasiyanı qiymətləndirəndə onu reallığa uyğun qiymətləndirməlisiniz. Özünüzü aldatmaq lazım deyil. Aydındır ki, Qarabağın müstəqilliyini heç kəs tanımayacaq", deyə erməni əsilli rusiyalı kinorejissor, Rusiyanın Xalq Artisti Karen Şahnazarov bildirib.

***İnam Hacıyev***

## Paşinyan sülhə hazır deyil



"Dağlıq Qarabağ məsələsində diplomatik həll yolu yoxdur". Bunu Ermənistan Baş naziri Nikol Paşinyan "Facebook" hesabında etdiyi canlı yayım zamanı bildirib. Paşinyan qeyd edib ki, Qarabağ məsələsinin indi və bundan sonrakı uzun müddət ərzində sülh yolu ilə həlli mümkün deyil: "Diplomatik həll yolu haqqında danışmaq artıq mənasızdır".

Paşinyan digər bir çağırışı ilə dinc əhalini də silahlanaraq döyüşlərə qatılmağa çağırıb. Görünən odur ki, mövcud reallığı dərk edib qəbul edə bilməyən Ermənistan baş naziri danışıqlar prosesini növbəti dəfə əngəlləmək və dinc erməni əhalisini döyüşlərə qatmaq istəyir.

# Ermənistan beynəlxalq hüququ hərtərəfli pozan və eyni zamanda, dünya ictimaiyyətindən imdad diləyən yeganə ölkədir



Sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi hər keçən gün uğurlu nəticələri ilə Azərbaycan xalqını sevindirməkdədir. Bu uğurların fonunda tükənən Ermənistan ordusu Paşinyan hakimiyyətini dünya liderlərinin və beynəlxalq təşkilatların qapısını döyməyə vadar edib. Paşinyan və onun komandası beynəlxalq təşkilatları, hətta təmsil olunduqları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) susqunluqda ittiham edir, Azərbaycana təzyiq göstərilməsi üçün dərdən-qabıqdan çıxır. Lakin onların unutduğu bir məqam vardır ki, 30 ilə yaxın beynəlxalq hüququ heçə sayan Ermənistan artıq beynəlxalq arenada ciddi qəbul olunmur, çünki irəli sürdükləri bütün iddialar əsassızdır.

Bunu Silahlı Qüvvələrin Hərbi Akademiyasının zabiti Xəyal İsgəndərov AZƏRTAC-a açıqlamasında deyib. Hərbi ekspert vurğulayıb ki, hazırkı müharibə Ermənistan Respublikasının xarici havadarlarının dəstəyi ilə beynəlxalq konvensiyaların tələblərini də kobudcasına pozduğunu, regionda ciddi təhlükəsizlik təhdidinə çevrildiyini göstərir. Belə ki, 1992-ci il noyabrın 9-da qüvvəyə minmiş Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə əsasında SSRİ-nin mövcud olan kvotasını bölüşdürərkən Ermənistanın payına 220 tank, 220 zirehli döyüş maşını, 285 artilleriya qurğusu, 100 döyüş təyyarəsi və 50 zərbə helikopteri düşmüşdü. Lakin Ermənistan Respublikası bu kvotanı nəinki pozub, hətta Paşinyanın hakimiyyəti dövründə bunu nümayişkaranə şəkildə göstərməkdən çəkinməyib.

"Qlobal Atəş Gücü-2020" indeksinə görə, Ermənistan Respublikası dünya ölkələri arasında (138 ölkənin hesabatı üzrə) 111-ci yerdə qərarlaşır. Mənbə göstərir ki, Ermənistan ordusunda 110 tank, 748 zirehli texnika (PDM, BTR, ZTR, BRDM və s.), 38 özüyeriyən və 150 qoşqulu artilleriya qurğusu var. "ArmedForces.eu" saytında Ermənistan ordusunda 529 tank, 1000 zirehli texnika və 436 artilleriya qurğusunun olduğunu iddia olunur ki, bu rəqəmlər daha real görünür. Təhlükəsizlik məsələləri üzrə mütəxəssis Tomas Baranec və Beskid Juraj bildirirlər ki, Ermənistan ordusunun 170 tankı, 250 zirehli texnikası, 360-dan çox artilleriya qurğusu Dağlıq Qarabağda yerləşdirilib. Qeyd edək ki, 2020-ci il sentyabrın 27-dən oktyabrın 20-dək düşmənin 241 tankı məhv edilib, 39 tankı isə hərbi qənimət kimi götürülüb (cəmi 280 tank). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq sual verir: "Haradandır onlarda bu qədər tank? Bir də ki, bu, beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər?"

Əslində, bu fakt Ermənistanın xarici qüvvələr tərəfindən silahlandırılması barədə iddiaları əsaslandırmağa imkan verir. Məsələ ondan ibarətdir ki, bəzi ölkələr bu qədər faktın qarşılığında nədənsə əllərində heç bir sübutu olmayan İrəvana inanmağı seçirlər ki, bu da ikili standartların mövcudluğunu yenidən gündəmə gətirir, beynəlxalq hüququn işləmədiyini nümayiş etdirir. Türkiyə Respublikası nümayəndələrinin də cəlb olunduğu inspeksiya qrupunun Ermənistanda həyata keçirməli olduğu yoxlamanın 2020-ci il iyulun 29-da İrəvanın istəyi ilə təxirə salınması da bu faktı sübut edir. Çünki Paşinyan hakimiyyətinin yeni müharibəyə hazırlaşdığı əvvəlcədən məlum idi. İraqda və Suriyada təlim keçən YPG/PKK terrorçularının Dağlıq Qarabağ bölgəsinə köçürülməsi faktı da bu məlumatı təsdiqləyir. Nəticə etibarilə beynəlxalq hüquq normalarını çeynəyən Ermənistan hakimiyyəti hansı haqla beynəlxalq təşkilatlardan yardım istəyir və hətta onları "laqeydlikdə" ittiham edir? Əslində, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin VII, VIII, IX və X bölmələrinə uyğun olaraq Ermənistanda yoxlamalar aparılmalı, nəticələri haqqında beynəlxalq ictimaiyyətə məlumat verilməli və Ermənistanın qeyri-qanuni silahlandırılmasında iştirak edən qüvvələr ifşa olunmalıdır.

Avropada Adi Silahlı Qüvvələrə dair Müqavilənin kvotalarına görə Ermənistan ordusunda 60,000 hərbçi xidmət edə bilər. Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitutun 2020-ci il statistikasına görə, Ermənistan Respublikası silahlı qüvvələrinin sayı 44,800 nəfərdir. Ehtimal olunur ki, Ermənistan ordusunun təxminən 20-22 minlik şəxsi heyəti Dağlıq Qarabağ ərazisində yerləşdirilmişdir. Lakin sentyabrın 27-dən başlayan əməliyyatların nəticəsində (təxminən 20 günlük) Ermənistanın Dağlıq Qarabağdakı ordu hissələri demək olar ki, tamamilə sıradan çıxarılıb.

Xəyal İsgəndərov bildirib ki, şəxsi heyəti də daxil olmaqla Ermənistan Respublikasının hərbi resursları demək olar tükənib. Ancaq hökumət yenə də xalqa yalan danışır ki, guya ordu taktiki manevrlər edir və geri çəkilmə də bu taktikanın bir hissəsidir. Ermənistan döyüş meydanındakı cəsədləri götürmək üçün atəşkəs istədi, lakin ilk fürsətdə atəşkəs müqaviləsinin tələblərini pozdu və beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncədə, Tərtər və Mingəçevirdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirdi. Atəşkəsi yalnız yenidən təşkilatlanma məqsədilə vaxt qazanmaq üçün istədiyindən Ermənistan hökuməti cəsədləri döyüş meydanından çıxarmaqda maraqlı deyil. Ermənistanda ailələrə nə qədər çox cəsəd çatdırılarsa, Paşinyana qarşı daha çox narazılıq yaranar və bu da vaxtilə onun hakimiyyətə gəlməsinə oxşar yeni inqilabla nəticələnər.

Əgər Paşinyan əvvəllər "Dağlıq Qarabağ ordusu" olduğunu iddia edirdisə, indi Ermənistan Respublikasının bütün resurslarını döyüşlərə cəlb etdiyi göz qabağındadır. Beşinci ordu korpusunun komandiri general-mayor Andranik Piloyana "milli qəhrəman" adının verilməsi, hətta ehtiyatda olan korpusun döyüşə cəlb edilməsinə bir işarədir.

"Beləliklə, beynəlxalq konvensiyaların tələblərini pozaraq, Dağlıq Qarabağda cəmləşdirdiyi silah və texnika Azərbaycan haqq savaşından çəkindirməyəcək və Azərbaycan Ordusu düşməni döyüş meydanında əzməyə davam edəcək. Aparılan təhlillərdən məlum olur ki, Ermənistan Respublikası öz silah və texnikasının təxminən 50 faizini itirib. Bununla yanaşı, Paşinyanın sıravi erməni xalqını silaha sarılmağa və döyüşməyə çağırması da onun çarəsizliyini göstərir. Nəzərə alsaq ki, Azərbaycanda hərbi xidmətə yararlı heyətin sayı 3 milyondan artıq olduğu halda, Ermənistanda təxminən 809 min 000 nəfərdir, onda Paşinyanın çarəsizliyinin səbəbini başa düşmək olar. Nəticə etibarilə Ermənistan ordusunun kapitulyasiyası gözlənilən məsələsidir", - deyə hərbi ekspert vurğulayıb.

# Prezidentə yazırlar: Siz Ali Baş Komandan kimi öz



***Müzəffər Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda ifadə edirlər.***

Türkiyənin Kocaeli şəhərindən Əhməd Hulusi Arslan yazır: "Hörmətli cənab Prezident, torpaqlarınızın azadlığı üçün göstərdiyiniz əzm və qətiyyəti alqışlayır, baş verən hadisələri qürurla izləyirəm. Mən ürək və damar xəstəlikləri üzrə cərraham. Müharibə və sülh şəraitində Azərbaycan naminə üzərimə düşən, əlimdən gələn nə varsa etməyə hazıram. Bu səbəbdən mən də əsgəriniz olaraq əmrinizi gözləyirəm.

Sakarya şəhərindən Vüqar Səvzəliyev yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən əslən azərbaycanlıyam, hazırda Türkiyə Respublikasının vətəndaşı kimi Sakarya şəhərində yaşayıram. Beynəlxalq münasibətlər üzrə bakalavr və magistr təhsilim var. Elmi işlərimi davam etdirirəm. Elmi işimin mövzusu beynəlxalq hüquqa görə Qarabağın statusu ilə bağlı olacaq. Sizin Qarabağ mövzusundakı qətiyyətli siyasətinizi qürurla izləyirik. Bu günlərdə Sizin rəhbərliyinizlə rəşadətli Azərbaycan Ordusunun yazdığı tarixə şahidlik edirik. Ailəm və buradakı bütün dostlarım Azərbaycan Ordusunun və Sizin bu müqəddəs mübarizənizi dəstəkləyir. Azərbaycanın xaricdə yaşayan diaspor üzvləri olaraq Sizin Qarabağın azad edilməsi uğrunda göstərdiyiniz səyi təqdir edirik. Bu barədə mən də şeirlərimlə Vətənimizə xidmət edirəm. Zəfər Sizinlə olsun. Eşq olsun Azərbaycanın Ali Baş Komandanına və Ordusuna!".

Bakı sakini Emil Adıgözəlov: "Cənab Prezidentimiz, bu məktubu yazmaqda məqsədim ailəm və bütün xalqımız adından Sizə və şanlı Ordumuza minnətdarlığımızı bildirməkdir. Uca Rəbbim Sizin rəhbərliyiniz altında şanlı tarix yazan rəşadətli Ordumuzu qorusun! Sizə tam əminliklə demək istəyirəm ki, bu çətin günlərdə daha da sıx birləşən xalqımızın ümummilli rəhbəri, ümummilli Ali Baş Komandanısınız. İqtidarlı-müxalifətli bütün xalqımız Sizin ətrafınızda sıx birləşib və sona qədər Sizinlədir. Uca Rəbbim Sizi bizə çox görməsin. Qələbə bizimdir, zəfər bizimlədir!".

Oğuz rayonundan Fərrux Ağakişiyevin məktubunda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 83 yaşlı ahıl Azərbaycan vətəndaşı kimi Sizi səmimi qəlbdən salamlayır və Ulu Tanrıdan Sizə möhkəm cansağlığı arzulayıram. O gün olsun ki, Sizin apardığınız uğurlu siyasət nəticəsində erməni faşistləri üzərində şanlı Ordumuz tam qələbə çalsın, dövlətimizin üçrəngli möhtəşəm bayrağı Laçında, Kəlbəcərdə, Şuşada, Xankəndidə və işğal olunmuş digər rayonlarımızda dalğalansın. Ordumuzun hər bir uğurlu əməliyyatı xalqımızı sevindirir və tam Qələbəmizə inamını artırır. Eşq olsun Azərbaycanın şanlı Ordusuna! Erməni ordusunun başıboş komandanları anlaya bilmədi ki, bir ovuc işğalçı on milyonluq xalqın intiqam hissi ilə alovlanan əsgərlərinə qalib gələ bilməz. Onların dirənişi tülkünün filə qarşı savaşına bənzəyir. Cənab Ali Baş Komandan, ilanı öldürmək azdır, gərək onun başını elə əzəsən ki, o bir daha sürünə də bilməsin. İndi elə vəziyyət yaranıb ki, biz gərək onların başını ilan başı kimi əzək. Onlar bir daha Qarabağ adı çəkə bilməsinlər, xülyalarında olan "böyük Ermənistan" arzusu ürəklərində buz parçası kimi donub qalsın. Möhtərəm Prezident, Siz eyni zamanda üç düşmənlə - erməni faşistlər, COVID-19 və öz daxilimizdə olan düşmənlə, "beşinci kolon"la vuruşursunuz. Xalqımız əmindir ki, bu savaşların hamısında qalib olacaqsınız. Bu qalibiyyətinizlə Sizin adınız tarixə qızıl hərflərlə düşəcək. Cənab Prezident, Sizin xalqa müraciətinizi izlədim. Çox mənalı, qəti və kəsərli çıxış idi. Allah Sizi qorusun! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!".

Bakı sakini Xaliq İbrahimov dövlətimizin başçısına yazır: "Hörmətli Prezidentimiz, cənab Ali Baş Komandanımız, xalqımız Sizinlə qürur duyur. Sizə arxalanır və inanırıq. Bu çətin və həlledici zamanda Sizin ətrafınızda daha da sıx birləşmişik. İnanırıq ki, Sizin səyləriniz nəticəsində illərdən bəri davam edən bu problemin öhdəsindən birlikdə və layiqincə gələcəyik. Sizə cansağlığı və tükənməz gücqüvvət arzulayıram. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Füzuli sakini Ruhiyyə İmanova: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bu gün bu məktubu Sizə Füzuli rayon sakini, hərbçi ailəsi və təhsil işçisi olaraq ünvanlayıram. 27 il Vətən həsrəti ilə yaşayan bizlərə qələbə sevincini yaşadan Ali Baş Komandanımız, biz Sizin siyasətinizi dəstəkləyirik. Məcburi köçkünlərə göstərdiyiniz qayğı və diqqətə görə, bu gün doğma torpaqlarımızn işğaldan azad olunmasına görə Sizə və Sizin döyüş əmrinizi yerinə yetirən güclü ordumuza təşəkkür edirik. Hər zaman Sizin və müzəffər ordumuzun arxasındayıq. Bu gün Siz Ali Baş Komandan kimi öz gücünüzü bütün dünyaya bir daha sübut etdiniz, mənfur düşmənimizi öz uzaqgörən siyasətinizlə bir daha məğlub etdiniz. Həm siyasi meydanda, həm döyüş meydanında "Qarabağ Azərbaycandır!" sözünü yazdınız. Bu gün uşaqdan böyüyə hər bir Azərbaycan vətəndaşı Sizin ətrafınızda sıx birləşərək, bizi böyük qələbəyə aparacağınıza, tez bir zamanda üçrəngli bayrağımızın Şuşada dalğalandırılacağına inanırlar. Cənab Prezident, Füzuli rayon təhsil işçiləri, hərbçi ailələri, bütün Füzuli rayon sakinləri hər zaman Sizin göstərişlərinizə əməl etməyə, ehtiyac olarsa, ordu sıralarında xidmət etməyə hazırdır".

Füzulinin daha bir sakini Taryel Şahbazov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, mən Füzuli rayon sakini olaraq, öz adımdan və rəhbəri olduğum "Araz" kəndli fermer təsərrüfatının kollektivi adından doğma Qarabağımızın bir hissəsini işğaldan azad etdiyinizə görə Sizə və müzəffər Ordumuza təşəkkürümü bildirir, bu haqq yolunda Sizə daha böyük uğurlar arzulayıram. Yaxın zamanda bütün xalqımızı böyük qələbə ilə sevindirəcəyinizə inanırıq. Hər zaman Sizin arxanızdayıq. Uca Allah Sizi və əmrinizdə olan rəşadətli Ordumuzu qorusun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Ağdam sakini Xəlil Bağırov: "Hörmətli Prezidentim, Ağdam rayonunun ziyalısı kimi Sizə öz adımdan, ailəmiz adından təşəkkür edir və dərin minnətdarlığımı bildirirəm. Azad olunan hər bir qarış Vətən torpağı üçün ürəkdən sevinirəm. Bu sevincə görə Sizə və qüdrətli Ordumuza minnətdarıq. Sizin xarici telekanallara müsahibələriniz zamanı verilən suallara ətraflı və əsaslı cavablarınız hər bir Azərbaycan vətəndaşının cavabıdır. Bu, şəxsən Sizin informasiya savaşında düşmən üzərində qələbənizdir. Buna görə də Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi və Ordumuzu qorusun!".

Kəlbəcər sakini Eldar Hüseynli yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bu məktubu Sizə yazan iyirmi yeddi ildir torpaq, yurd həsrəti ilə yaşayan, bir gün belə o yerlərə qayıtmaq ümidini itirməyən, Kəlbəcər rayonundan olan səksən yaşlı məcburi köçkündür. Cənab Prezident, Siz uzaqgörən və məqsədyönlü siyasətinizlə həmişə ölkəmiz və xalqımız üçün çox böyük işlər görmüsünüz. Biz qətiyyətlə inanmışıq ki, sayənizdə bir gün gələcək, hamımız öz doğma torpaqlarımıza, el-obamıza qayıdacağıq. Çox şükür ki, həmin gün gəlib çatıb. Gözəl və əsrarəngiz təbiəti, yeraltı və yerüstü zəngin təbii sərvətləri olan Kəlbəcərə tezliklə geri dönəcəyimiz günü səbirsizliklə gözləyirik. Əziz Prezidentim, təbiətinin gözəlliyi ilə həmişə İsveçrəyə bənzədilən Kəlbəcər rayonunda, dünyaca məşhur müalicəvi suyu olan "İstisu"da Sizi və Birinci vitse-prezidentimiz Mehriban xanımı qonaq etmək biz kəlbəcərlilərin ən böyük arzusudur. Sizə inanırıq, Sizə güvənirik. Qələbə bizimdir, Qarabağ Azərbaycandır! Allah Sizi bizə çox görməsin!".

Ağcabədi sakini Telman Həsənov: "Hörmətli cənab Prezident, işğal altında olan torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi həyatda ən böyük sevincimiz və arzularımız olub. Biz ağcabədililər, eləcə də bütün Azərbaycan xalqı Sizinlə fəxr edir və belə bir Ali Baş Komandanımız olduğu üçün qürur duyuruq. Bizim rayonun əraziləri atəşə məruz qalsa da işıqlarımız yanır, cəbhədə gedən hadisələri televiziya vasitəsilə izləyirik. Biz Sizi çox sevirik, cənab Prezident. Azərbaycanımızın çiçəklənməsi, ərazi bütövlüyümüzün bərpası və müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün gördüyünüz bütün uğurlu işlər üçün Sizə minnətdarlığımızı bildiririk. Bu şərəfli, müqəddəs işlərinizdə uca Allah köməyiniz olsun".

Niderlandda yaşayan soydaşlarımız Elvin Hulşer və Tariyel Mirzəyev yazırlar: "Möhtərəm cənab Prezident, Azərbaycan-Niderland Biznes Qovşağının heyəti adından Azərbaycan xalqına öz dəstəyimizi ifadə etmək istəyirik. Ürəyimiz hərbi əməliyyatlar nəticəsində zərər çəkmiş insanların yanındadır. Arzu edirik ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri dərhal icra edilsin və beləliklə, sülh və davamlı rifah geri qayıtsın".

Bakı şəhər sakini Xanağa Əhədli: "Əziz Prezidentimiz, Sizi salamlayan 86 saylı orta məktəbin 5ç sinif şagirdidir. Mən Sizə təşəkkür etmək üçün məktub yazıram. Hər gün torpaqlarımızın düşməndən azad edilməsi barədə verdiyiniz xəbərləri dinləyən anamın gözündəki sevinc göz yaşlarını

# gücünüzü bütün dünyaya bir daha sübut etdiniz!

görmək məni də sevindirir. Biz də ailəliklə daim cəbhədəki vəziyyəti düşünürük və deyirik ki, Qarabağ Azərbaycandır!".

Masallı rayon sakini Tofiq Canaliyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin komandanlığınız altında Azərbaycan Ordusunun Qarabağ torpaqlarının işğaldan azad olunması uğrunda göstərdiyi şücaət bu gün dillər əzbəridir. Bu uğurların şəninə şeirlər qoşulur, nəğmələr oxunur. Xalqımızda çox yüksək əhval-ruhiyyə müşahidə olunur. Cənab Prezident, bu qətiyyətli və şücaətli işlərinizə görə Masallı rayonunun Xəlfələr kəndinin sakinləri adından Sizə böyük minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər arzu edirik. İnanırıq ki, tezliklə Azərbaycan ərazisinin bütövlüyünü bərpa edəcəksiniz. Yaşasın Azərbaycan xalqı, onun şanlı Ordusu və Ali Baş Komandanı!".

Şəki sakini Ömər Mirzəyev: "Hörmətli Prezidentimiz, bu gün ulu öndərimiz Heydər Əliyevin hər bir azərbaycanlının ömürlük yaddaşında həkk olunmuş şüarını xatırlatmaq istərdim: "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!". Elə bu şüar altında da Şəki rayonunun Kiş kənd sakini olan xalam oğlu Vüsal Rzayev könüllü olaraq 31 yaşında Şəki Hərbi Komissarlığından Vətənə xidmət etmək üçün yola düşüb. Cənab Ali Baş Komandan, Ulu Tanrı Sizə və əsgərlərimizə yar olsun. Hər zaman Sizdən qələbə xəbərləri eşidək. Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!".

Bərdə sakini Musa Quliyev: "Hörmətli cənab Prezident, bu məktubu sevinc içərisində yazıram. Otuz ildən bəri gözlədiyimiz bu günlər - Sizin rəhbərliyiniz altında qəhrəmanlıq tarixi yazan Azərbaycan Ordusunun Qarabağ torpaqlarını qarış-qarış azad etdiyi zəfər günləri hamımızı sevindirir. Mənfur ermənilərə qarşı apardığınız haqlı mübarizədə Sizinləyik, həmişə Sizin arxanızdayıq və yanınızdayıq. Möhtərəm Prezidentimiz, əminliklə deyə bilərəm ki, bu gün hər bir Azərbaycan vətəndaşı qüdrətli, güclü dövləti ilə və öz sözünü, xalqın istəyini dünyaya çatdıran müdrik, cürətli Prezidenti ilə fəxr edir. Sizə bu haqq mübarizənizdə yeni-yeni uğurlar diləyir, Ulu Tanrıdan cansağlığı, uzun ömür arzulayıram. Arzum budur ki, doğma torpaqlarımız uğrunda canından keçməyə hazır olan mərd, igid oğullarımız Azərbaycanın üçrəngli bayrağını Şuşada dalğalandırsın. Qoy Allah-Təala yolunuzu açıq eləsin, məğlubedilməz Ordumuzu mənfur düşməndən qorusun. Allah Sizinlə və Ordumuzla olsun".

Şamaxı sakini Ruslan Əmrahov: "Hörmətli cənab Prezident, sentyabrın 27-dən xalqımız şərəfli, həyəcanlı, qürurlu günlər yaşayır. İlk qələbə xəbərlərindən sonra isə sevincimizin hədi-hüdudu yox idi. Mən döyüşə getmək üçün könüllü kimi ilk qeydə alınanlardan biriyəm. Çağırılacağım günü səbirsizliklə gözləyirəm. Ətrafımda isə minlərlə məni kimi qərarlı gənc var. Kimin üzünə baxsan məğrurdur, Sizin səlis, dəqiq, dürüst nitqinizdən razıdır. Açığı, bütün hislərimi, sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Amma şükür edirəm ki, düşmənləri doğma torpaqlardan qorumaq vaxtı çatıb. Hamımız Sizə minnətdarıq, hörmətli Prezident, Sizə və ailənizə ən xoş arzularımızı bildirir, Sizinlə fəxr edirik. Belə bir liderimiz olduğu üçün qürur duyuram. Biz həmişə Sizinləyik. Allah Sizi və Ordumuzu qorusun. Amin".

Bakı şəhər sakini Namiq Şavruqov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal olunmuş bəzi ərazilərimizi vəhşi erməni qəsbkarlardan Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz azad etmişdir. Ermənilərə dediyiniz kimi, elə bilirdiniz ki, Azərbaycan sizin işğal və təhqirlərinizlə barışacaq? Təbii ki, barışmayacaq. Buna görə Silahlı Qüvvələrimizin şəxsi heyətinə və Ali Baş Komandan kimi şəxsən Sizə sonsuz təşəkkürümü bildirirəm. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm. Amin. Mən əminəm ki, apardığınız bu uğurlu hərbi əməliyyatlara görə şəhidlərimizin və Azərbaycanı parçalanmaqdan qurtaran ulu öndər Heydər Əliyevin ruhları şaddır. İndi Siz bir oğul kimi atanızın müqəddəs missiyasını davam etdirirsiniz. Lakin çox təəssüf ki, bəzi güclər işğalçı və başqasına güvənən Ermənistanı yenə də himayə edir. Bu çətin və müqəddəs mübarizədə Sizə və Ordumuza Uca Allahdan sağlamlıq, möhkəm dəyanət və sarsılmaz qətiyyət arzulayıram".

Şirvan sakini Asiman Nadirli: "Hörmətli Prezident, Cənab Ali Baş komandan, Sizin uğurla apardığınız siyasət nəticəsində bu gün ordumuzdan qələbə xəbərləri alırıq. Nəhayət ki, 27 ildir həsrətində olduğumuz torpaqlarımızı Sizin qətiyyətiniz sayəsində işğalçılardan geri alırıq. Biz fəxr edirik ki, Azərbaycan xalqının güclü ordusu və Sizin kimi müdrik rəhbəri var! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Gəncə şəhər sakini Mətanət Axundzadə: "Qüdrətli Prezidentimiz, mənim 10 yaşım var, 5-ci sinifdə oxuyuram. Yaşımın az olmasına baxmayaraq torpaqlarımızın azadlığı uğrunda ölməyə belə hazıram. Biz Gəncədə yaşayırıq və buraya düşmən ordusu tərəfindən tez-tez raketlər atılır. Amma biz heç nədən qorxmuruq, çünki bizim Sizin kimi Ali Baş Komandanımız və güclü Ordumuz var. Yaşasın Prezidentimiz! Yaşasın Azərbaycan Ordusu! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Füzuli sakini Elmir Məmmədzadə: "Hörmətli Prezidentimiz, cənab Ali Baş Komandan, bir Füzuli rayon sakini kimi, dərin minnətdarlıq hissi ilə qeyd etmək istərdim ki, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda yorulmaz fəaliyyətiniz və ordumuzun rəşadəti sayəsində tam qələbəmizə lap az qalır. İnşallah, şanlı bayrağımız Şuşada, Xankəndidə, bütün Qarabağımızda fəxrətlə dalğalansın. Uca Tanrı Sizi və igid Azərbaycan əsgərlərini qorusun! Qarabağ bizimdir! Qarabağ Azərbaycanındır! Eşq olsun şanlı Ordumuza!".

Lənkəran sakini Rövnəq Məmmədov: "Çox hörmətli və əziz Prezidentimiz. Əvvəla, Sizə dərin hörmətimi bildirir, salamlarımı çatdırıram. Mən sevincimdən göz yaşları tökürəm. Bu göz yaşları sevincimin yalnız bir hissəsidir. Belə bir sevinci sözlə tam ifadə etmək çox çətindir. Azərbaycanın şanlı qələbəsi üçün Siz Ulu Öndərin siyasi yolunu davam etdirərək, Azərbaycan dövlətinin iqtisadi və hərbi qüdrətini, dünya arenasında siyasi hörmətini artıraraq Azərbaycanın gücünü mənfur düşmənə və havadarlarına göstərdiniz. Siz Azərbaycan xalqının və dövlətinin tükənməz qüvvəsi, sönməz günəşisiniz. Günəş üfüqə qalxdıqca onun işığı və hərarəti bütün qaranlıqlara həyat verərək işıqlandırır. Cənab Prezident, qələbələrimiz münasibəti ilə Sizi və şanlı Ordumuzu təbrik edirəm. Ulu Tanrı qəlbinizin odlu hərarətini Azərbaycan xalqından əskik etməsin. Qarabağ Azərbaycandır!".

Biləsuvar rayon sakini Manaf Süleymanov: "Hörmətli cənab Prezident, ailəm adından və şəxsən öz adımdan Sizi, ailənizi, xalqımızı və bütövlükdə dövlətimizi təbrik edirəm. Neçə illərdir bizim bu gözəl torpaqlarımız üstündə gedən mübahisələrə son qoyaraq tarix yazırsınız. İnanıram ki, xalq üçün bu, əbədi tarix olacaqdır. Bütün siyasi partiyaları və xalqı Sizin uzaqgörən siyasətiniz birləşdirmişdir. Bu xalq hər zaman Sizi dəstəkləyəcəkdir. Mən, Cəbrayıl şəhərinin işğaldan azad olunduğunu eşidəndə özümü saxlaya bilmədim, gözümdən yaş axdı. "İlahi sənə şükür, mən hansı şad xəbəri eşidirəm!" - dedim. Tanrı hər zaman Sizi sevindirsin, cənab Prezident".

Füzuli sakini Qaraxan Teymurov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 27 illik Füzuli həsrətimə son qoyduğunuz üçün Sizə təşəkkür edirik. Bütün Azərbaycan xalqı kimi füzulililər də daim Sizinlədir. Vətən qarşısında bu müqəddəs xidmətiniz yalnız bizim hərb tariximizə deyil, bütün dünya tarixinə qızıl hərflərlə yazılacaqdır. Eşq olsun Prezidentimizə! Eşq olsun Ordumuza!".

Saatlı rayon sakini Fuad Kərimov: "Hörmətli cənab Prezident, Ermənistanın növbəti təxribatlarına cavab olaraq rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində 30 ilə yaxın düşmən tapdağında qalan doğma torpaqlarımız işğaldan azad olunur. Sizi qazanılan qələbələr münasibətilə təbrik edirəm. Qələbə və uğurlarınız bol olsun! Allah Sizə Qarabağda yeni yolların, müəssisələrin açılışını qismət etsin".

## Gürcüstan mətbuatı: Zəngilanda Azərbaycan bayrağı dalğalanır


ზანგილანში აზერბაიჯანის დროშა აღიმართა - VIDEO

20 ოქტომბერი, 2020 16:14

ზანგილანში განლაგებულმა აზერბაიჯანელმა სამხედროებმა იქ დროშა აღმართეს და ქვეყნის პრეზიდენტს მიმართეს.

"ძვირფასო ბატონო პრეზიდენტო,
ბატონო უზენაესო მთავარსარდალო, თქვენი ბრძანების თანახმად, გაცნობებთ, რომ ქალაქი ზანგილანი და მიმდებარე ტერიტორიები ოკუპაციისგან გათავისუფლებულია. ამჟამად, აქ აზერბაიჯანის დროშა ფრიალებს. გაუმარჯოს აზერბაიჯანს! გაუმარჯოს უზენაეს მთავარსარდალს! ყარაბაღი აზერბაიჯანია!", - ამ განცხადებით მიმართეს აზერბაიჯანის პრეზიდენტს, ზანგილანში მყოფმა სამხედროებმა.

Gürcüstan mətbuatının bugünkü buraxılışlarında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa növbəti müraciəti və müzəffər Azərbaycan Ordusunun yeni qələbələri, Zəngilan şəhərinin və rayonun, eləcə də Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının bəzi kəndlərinin işğaldan azad edilməsi barədə xəbəri, eləcə də işğaldan azad olunmuş Zəngilan şəhərində dövlət bayrağımızın dalğalanması barədə xəbərlər yenə də ən çox oxunan xəbərlər sırasındadır.

AZƏRTAC xəbər verir ki, nüfuzlu report.ge, 24news.ge, pia.ge, aktual.ge informasiya portalları, televiziya kanalları Azərbaycan Prezidentinin xalqa yeni müraciətini Azərbaycan, rus, gürcü və ingilis dillərində oxuculara çatdırıblar. Xəbərlər insanlara təkcə mətn və fotolarla deyil, videogörüntülər vasitəsi ilə də çatdırılır. Bəzi materiallarda Azərbaycan Prezidentinin xalqa müraciəti zamanı "Biz Ermənistan hökumətini diz üstə çökdürdük" kəlamı sərlövhə kimi təqdim olunub.

## Pakistanlı jurnalist: Azərbaycan öz torpaqlarını azad etməkdə haqlıdır

Azərbaycan xalqı sülhsevər xalqdır. Bu ölkə həmişə sülh istəyib. 27 il sülh arzusu ilə yaşayan xalqın səbri tükənib. O, torpaqlarını azad etməkdə haqlıdır. Ancaq bu gün Qərb heç də dediyi kimi sülhün bərpasında maraqlı deyil. Qərb ölkələri daima sülhdən danışırlar, ancaq sülh uğrunda ciddi səylər göstərməyib və göstərmir.

Bu fikirləri Parisdə Azərbaycan Mədəniyyət Mərkəzində jurnalistlər üçün təşkil edilmiş mətbuat konfransında iştirak etmiş pakistanlı jurnalist Ateeq Sahibzadə AZƏRTAC-a müsahibəsində deyib.



Bildirib ki, Qərb həmişə öz maraqlarına görə hərəkət edib. Ədalət, sülh unudulub. Son onilliklər ərzində baş verən müharibələrə nəzər salanda bunu aydın görmək olur. Dünyada sülh artıq maraqlara çevrilib. Müharibələrin uzun müddət davam etməsində Qərbin öz maraqları var.

Azərbaycan öz torpaqlarını - Dağlıq Qarabağ ətrafındakı 7 rayonu azad etməlidir, bu gün Azərbaycan haqq yolundadır. Əminəm ki, Azərbaycan tezliklə bütün torpaqlarını azad edəcəkdir. A.Sahibzadə Pakistanın Azərbaycanı həmişə dəstəklədiyini deyərək, iki ölkə arasında yüksək səviyyəli sıx dostluq əlaqələrinin olduğunu vurğulayıb.

*Beynəlxalq hüquqi və siyasi münasibətlərin predmeti olan hər bir dövlətin uğurlu inkişafı üçün ərazi bütövlüyünü və bütün vətəndaşların dinc yanaşı yaşamasını qorumaq lazımdır. Bu, həmişə beynəlxalq siyasi qüvvələrin diqqət mərkəzində olan etnik qrupların tarixən qurulmuş müxtəlifliyinə sahib olan ölkələr üçün doğrudur.*

# Müharibə barışıq məcburiyyəti olaraq




Bu gün müasir beynəlxalq münasibətlərdə hökm sürən əməkdaşlıq və qarşılıqlı asılılıq prosesləri gələcək nəsillər üçün sülhün qorunması və uzanan bütün münaqişələrin vaxtında həll edilməsinin zəruriliyini nəzərdə tutur. Münaqişənin əsas səbəbi qaynaqlar uğrunda mübarizə olsa da, münaqişənin başlanmasına səbəb ola biləcək bir çox etiraf, etnik və sosial səbəblər var. Bu münaqişələrin vaxtında həll olunması problemi həm praktik, həm də elmi baxımdan çox vacibdir. Bu gün Azərbaycan Respublikasının milli maraqlarının reallaşması uzun tarixi kökləri olan və təxminən otuz ildir davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla milli təhlükəsizliklə bağlı bir çox vəzifələrin həllini tələb edir. Bu gün, dünya ictimaiyyəti tərəfindən ərazilərinin 20% -ni itirdiyi və bir milyona yaxın insanın öz ərazilərində qaçqın düşdüyü həqiqi status-kvonun cahilliyindən sonra, münaqişənin kifayət qədər dərinləşdiyi aşkardır.

Yüz minlərlə insan məcburi köçkünə çevrildi, rabitə sistemləri məhv edildi, ekoloji tarazlıq pozuldu və milyardlarla dollar dəyərində maddi ehtiyatlar itdi. Mədəni abidələr məhv edildi, nəticədə bütöv bir tarixi təbəqə xarabalığa çevrildi. Bu münaqişə nə qədər uzanırsa, son hədəf - bölgədə sülh daha da artar. Bir çox beynəlxalq təşkilatın səylərinə baxmayaraq, təəssüf ki, həlli bir həll yolu tapılmadı.

Bu günə qədər ATƏT-in Minsk Qrupu, digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, münaqişənin əvvəlində ölkənin təcavüzkar təcavüzkarları tərəfindən ərazisini dərhal azad etməsinə dair dörd qətnaməni qəbul etmiş, həm uzun müddətdir davam edən bu münaqişənin həm ölkənin, həm də bölgənin rifahını əngəlləyən uğurlu həllini təmin edə bilməmişdir. ümumiyyətlə. Münaqişənin sentyabr ayında kəskinləşməsinin dərhal səbəbi Ermənistan ordusunun Azərbaycan ordusunun əks hücumu ilə nəticələnən konkret hücumları idi. Münaqişənin bu və ya digər tərəfini dəstəkləyən qüvvələrin öz siyasi maraqları var ki, bu da döyüş əməliyyatları zamanı aydın görünürdü.

Bu illər ərzində Azərbaycanın siyasəti münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsinə, beynəlxalq sərhədlərin tanınmasına və dövlətin suveren bütövlüyünə yönəldilmişdir. Bundan əlavə, ölkə bölgə ölkələri və bütövlükdə dünya ilə bərabər və qarşılıqlı faydalı əlaqələr qurmaqda balanslı və uzaqgörən siyasət yürüdürdü. Bu, xüsusən Rusiya, Gürcüstan, Türkiyə və digər ölkələrin iqtisadi xarakterli bütün regional layihələrdə iştirakında və aralarındakı ticarət, iqtisadi, sosial-mədəni əlaqələrin genişlənməsində izlənilə bilər.

Tarixən coğrafi mövqeyinə görə Azərbaycan əlverişli təbii və iqlim şəraiti və ehtiyatlarından bəhs etmədən bir sıra mühüm strateji üstünlüklərə malikdir. Bu gün münaqişənin kəskinləşməsi şəraitində hər bir azərbaycanlını narahat edən problem hər kəsin səylərini milli birlik və dövlətin qüdrəti ətrafında cəmləşdirmək zərurətidir.

Uzun müddətdir çoxmillətli bir ölkə olan Azərbaycanda Azərbaycan dilindən də millətlərarası ünsiyyət dili kimi istifadə olunur.



Eyni zamanda tolerantlıq etnikdini psixologiyanın vacib keyfiyyətidir. On illər ərzində çoxmədəniyyətli təhsil və tolerant həyat tərzi prinsipləri formalaşmışdır. Ölkədə dövlət - Azərbaycan dilindən əlavə rus, ingilis və digər dillərdə tədris olunan məktəblər var. Universitetlərdə və müxtəlif təşkilatlarda (rus, koreys, yapon və s.) Xalqların mədəniyyətinin öyrənilməsi, dillərin öyrənilməsi üçün çoxsaylı mərkəzlər mövcuddur. Bakı Slavyan Universiteti uzun illərdir slavyan dilləri üzrə mütəxəssislər hazırlayır.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarından birində vurğuladığı kimi, "heç bir ölkə qondarma" Dağlıq Qarabağ Respublikası "nı tanımadı və dünyanın aparıcı təşkilatları və bir çox ölkələri orada keçirilən qanunsuz referendumlara sərt reaksiya göstərdi. Dünyaya münaqişə ilə bağlı həqiqətləri söyləyirik və deməyə davam etməliyik. Düşünürəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əvvəllər erməni lobbisi tərəfindən yayılan yalan, təhrif olunmuş məlumatlar daha geniş yayılmışdısa, bu gün dünya ictimaiyyəti münaqişədən yaxşı xəbərdardır".

Bu çətin günlərdə də Azərbaycan danışıqlarda konstruktivlik göstərməyə davam etdi. Prezident İlham Əliyevin "60 dəqiqə" verilişində "Rusiya-1" kanalına verdiyi müsahibəsində qeyd etdiyi kimi, Azərbaycan münaqişənin iki tərəfi - Ermənistan və Azərbaycan olduğu zaman danışıqlar formatına sadiq qaldığını dəfələrlə bəyan etdi. Prezidentin vurğuladığı kimi, Dağlıq Qarabağın kukla rejimi danışıqlar prosesinə daxil edilə bilməz. Doğrudan da, Ermənistan danışıqlar prosesini pozmaq və status-kvonu qorumaq üçün hər şeyi edir və Dağlıq Qarabağın Ermənistan olduğunu elan edərkən danışıqlar necə davam etdirilə bilər?

Əlbətdə ki, Ermənistanın törətdiyi bütün təxribatlar tək bir məqsədi güdür - diqqəti ölkə əhalisinin çıxılmaz, fəlakətli sosial-iqtisadi vəziyyətindən yayındırmaq. Eyni zamanda, Ermənistan münaqişənin həlli üçün tamamilə qəbuledilməz şərtlər irəli sürür.

Şübhəsiz ki, Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-də başlatdığı əks-hücum son illərin ən böyük eskalasiyasıdır. Tarixi ədaləti bərpa etmək üçün yeganə məqsədi güdür. Tanklar, ağır artilleriya, helikopterlər və pilotsuz təyyarələrdən istifadə olunur ... Onlarla hərbçi və mülki şəxs ölür ... Yeni toqquşma bir sıra amillərin nəticəsidir: Azərbaycanın danışıqlar yolu ilə hədəflərinə çatmaq ümidini itirməsi, eyni zamanda beynəlxalq ictimaiyyətin laqeydliyi və cavabsızlığı. Carnegie Center-in baş elmi işçisi Thomas de Waal, Azərbaycanın bu addımı danışıqlar nəticəsində hədəflərinə çatmaq üçün can atdığını qeyd etdi. Təcrübəli mütəxəssisin fikrincə, bu qərara Ermənistanla danışıqlarda çıxılmaz vəziyyət və lider Nikol Paşinyanın Azərbaycan üçün məqbul şərtlərlə ciddi danışıqlardan imtina etməsi səbəb ola bilər. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin dediyinə görə, "əməliyyatımız müdafiə xarakterlidir - əhalini qorumaq və Ermənistanı sülhə məcbur etmək." Və bu məqsədə çatılacaq! Milli ordunun yüksək mənəviyyatı və döyüş ruhu, misilsiz birlik və Azərbaycan xalqının ölkə rəhbərliyinin siyasətini qeyd-şərtsiz dəstəyi münaqişənin uğurlu və ədalətli həlli və bölgədə sülhün əldə olunması üçün əsasdır.

**K.N. Məmmədova,**
**Fəlsəfə doktoru**

# Ermənistan dinc insanları atəşə tutmaqla barbarlığını təsdiq etdi



**Milli Məclisin deputatı, YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyevin yap.org.az-a müsahibəsi**

**- Naqif müəllim,"Böyük Ermənistan" xəstəliyinə tutulmuş erməni daşnakları ilə qonşuluqda yaşamaq, öz ərazimizdə, dədə-baba torpağımızda bu namərdlərə yer vermək xalqımızın taleyinə terror, işğal, soyqırım, deportasiya kimi faciələrin, dəhşətlərin yazılmasına səbəb oldu...**

- Mənşə etibarilə Qafqaz xalqları sırasına mənsub olmayan ermənilər sabun köpüyünə bənzəyən niyyətlərinin puçluğunu göstərməmək üçün illərdir dəridən-qabıqdan çıxır, ən alçaq və rəzil üsullardan istifadə edərək qonşu xalqların torpaqlarını zəbt etmək və onları özlərinin dədə-baba yurdu adlandırmaq üçün hər cür riyakarlıqdan çəkinmirlər. Tarix boyu Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti həyata keçirən Ermənistan faşist ideologiyasından əl çəkmək istəmir.

Azərbaycanın 20 faiz torpağını işğal edərək 1 milyondan çox əhalisini öz doğma yurdundan didərgin salan işğalçı Ermənistan hakimiyyəti bir çox beynəlxalq təşkilatların çağırışlarına, BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə məhəl qoymayaraq hələ də işğalçı mövqeyində qalır. XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanan Xocalı soyqırımı ermənilər üçün yetərli olmadı. "Dənizdən dənizə" sarsaq xülyaları naminə insanlığa qarşı ən ağır cinayətlərə- dinc əhalinin vəhşicəsinə kütləvi qırğınına əl atmaqdan usanmayan barbar ermənilər yeni qətliamlara qərar verdilər.

Erməni terrorçuları 28 il sonra ikinci Xocalı soyqırımını törətdilər. İşğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, habelə, 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, dinc sakinlərimizi bilərəkdən hədəfə almaqda davam edir. Azərbaycan ilə Ermənistan arasında humanitar əsasda atəşkəs elan edilməsinə baxmayaraq, erməni tərəfi öz riyakar xislətinə və təcavüzkar mahiyyətinə uyğun olaraq imzalanan razılaşmanın bütün maddələrini kobud şəkildə pozaraq Azərbaycanın həm cəbhəboyu rayon və kəndlərini, həm də cəbhədən uzaqda yerləşən şəhərlərini ağır artilleriya və raket atəşinə tutur.

**- Azərbaycanın ikinci ən böyük şəhəri olan, 500 mindən çox əhalinin yaşadığı və cəbhə xəttindən uzaqda yerləşən Gəncənin dayanmadan erməni vandalları tərəfindən raket və artilleriya atəşinə məruz qalmasıinsanlığa qarşı növbəti cinayət kimi tarixə yazıldı. Ermənistanın bütün dünya qarşısında bu qədər açıq və birmənalı şəkildə müharibə cinayəti törətməsi beynəlxalq təşkilatların münasibəti necə oldu?**

- Oktyabrın 11-də gecə saatlarında Ermənistanın siyasi-hərbi rəhbərliyinin əmri ilə atılan qadağan olunmuş raket 3 yaşayış binasını dağıtdı, yerlə yeksan etdi. Ermənistanın dinc və günahsız azərbaycanlılara qarşı törədilən növbəti terror aktı, barbar və vəhşi hücumu nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 40 nəfər yaralandı, 3 uşaq hər iki valideynini itirdi. Uzaqmənzilli raketlə Gəncədə əhalinin sıx yaşadığı bir nöqtəsini vurmaları onların xain planlarının bir hissəsi idi.

Hiyləgər, məkrli siyasətindən geri qalmayan düşmən Gəncəni ilk dəfə. oktyabrın 4-də raket hücumuna məruz qoyub. O zaman 1 nəfər həlak olub, 20-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarət alıb. Oktyabrın 17-də erməni təcavüzkarlarının Gəncəyə növbəti hücumu nəticəsində isə 14 nəfər qətlə yetirildi, 55 nəfər isə müxtəlif xəsarət aldı. 4 oktyabr 2020-ci il tarixindən indiyədək ermənilərin müharibə cinayətləri Gəncədə 25 mülki şəxsin həyatına son qoyub, 120-dən çox dinc sakinin müxtəlif dərəcəli bədən xəsarətləri almasına səbəb olub. Eyni zamanda erməni vandalizmi nəticəsində çoxsaylı yaşayış binası tamamilə dağılıb, 100-lərlə obyektə, ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ciddi ziyan dəyib.

Heç bir beynəlxalq konvensiya və hüququ tanımayan, istənilən sənədi ayaqlayan, əldə olunmuş razılaşmanı, atəşkəsi xaincəsinə pozan Ermənistanın əməllərinə, Gəncədə törədilən vandalizmə, soyqırımına 28 il əvvəl olduğu kimi yenə də dünya birliyi, beynəlxalq təşkilatlar səssiz qalır. Dünya səsini çıxarmadıqca daha da azğınlaşan erməni hakimiyyəti cəbhədəki uğursuzluqlarını ört-basdır etmək üçün dinc sakinləri hədəf alır, vətəndaşlarımız arasında təşviş yaşatmağa çalışır. Ön cəbhədən uzaq yaşayış məntəqələrinə, mülki obyektlərə, dinc əhaliyə, o cümlədən uşaq, qadın və qocalara atılan raketlər sübut edir ki, gözünü qan örtmüş düşmən öz arzu və xain niyyətlərini reallaşdırmaq üçün daha irəli gedir. Döyüş meydanında uduzmağın əvəzini Azərbaycanın dinc əhalisinə, mülki obyektlərinə zərbə endirməklə çıxmaq istəyən Ermənistan rəhbərliyinin cəbhədən uzaq Gəncə və Mingəçevir şəhərlərini vurması dövlət terrorizmi və bəşəri cinayətdir. Ermənilərin son vandallıq və soyqırım aksiyası insanlıq prinsiplərinə açılan amansız atəş, beynəlxalq normalara açıq meydan oxumaqdır. Dünyada sülhün və təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunmasına, beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsinə, mülki əhalinin öldürülməsini qadağan edən beynəlxalq konvensiyaların yerinə yetirilməsinə məsuliyyət daşıyan, buna nəzarət etməli olan beynəlxalq təşkilatlar Ermənistanın bütün dünya qarşısında bu qədər açıq və birmənalı şəkildə müharibə cinayəti törətməsinə laqeyd qalmamalıdır.

Müharibə, terror, qəddarlıq - erməni cinayətləri bitmir. Ermənistan tərəfi nə tarixi, nə mədəni, nə də dini dəyərlərə məhəl qoymur. Əslində təəccüblü deyil. Öz vahid coğrafiyası, dədə-baba torpağı olmayan, ona dəstək olan, qol-qanad açan qonşunun yurduna xaincəsinə göz qoyan, dinc sakinlərinə hücum edən, terror aktı törədən millətdən bundan artıq nə gözləyəsən. Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayətlər, qanlı terror aktları hərbi və siyasi təxribat kimi qiymətləndirilməli, dünya birliyi erməni azğınlıqlarına səssiz qalmamalıdır. İnanırıq ki, oktyabrın 12-də, 17-də Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olmaq üçün Gəncəyə səfərə gələn ölkəmizdəki diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərləri erməni vəhşiliyini dünyaya bəyan edəcək. Mülki əhaliyə qarşı törətdilən vandalizm aktını şəkillərdən, videolardan deyil canlı-canlı izləyən dünya xalqlarının nümayəndələri hərbi cinayətlər törədən, dinc əhalini hədəfə alan Ermənistanın vandallığını, barbarlığını, sənqimək bilməyən faşist ideologiyasını beynəlxalq ictimaiyyətə çatdıracaqlar. Dünya şahid olsun ki, faşist xislətli erməni daşnakların saxta torpaq iddiası altında Azərbaycan xalqı soyqırıma məruz qalır, evləri yerlə yeksən edilir, dinc sakinlər qətlə yetirilir. Beynəlxalq ictimaiyyət görsün ki, bir tərəfdən işğalçı Ermənistan Moskvada sülh danışıqlarınına gedir, guya humanist dövlət olduğunu göstərir, digər tərəfdən isə gecə saatlarında Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutur. Adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirən Ermənistan dinc insanları və şəhərləri atəşə tutması ilə barbarlığını təsdiq etdi.

**- Ermənistan silahlı qüvvələrinin mülki vətəndaşların kompakt yaşadıqları əraziləri ağır artilleriya və raketlərdən hədəfə alması Gəncə sakinlərinin əzmini qıra bilmədi. Hər zaman hadisə yerində, terror aktından zərərçəkən vətəndaşların yanında olduğunuz üçün bu barədə fikirlərinizi bizmlə bölüşərdiz.**

- Bütün dəyərləri ayaq altına almış çox radikal bir düşmənlə üzüzə dayanan qədim Gəncə şəhəri erməni terrorizminə, vandalizminə qarşı müqavimət rəmzinə çevrilib, erməni qəddarlığına, ölçüyəgəlməz azğınlıqlarına sinə gərir. Gəncə əhalisi anlayır ki, Azərbaycan Silahlı Qüvvələri qarşısında tab gətirə bilməyən Ermənistan hərbçiləri dinc sakinləri hədəf almaqla təşviş yaratmaq istəyir. Ermənistan tərəfindən Gəncəyə raketlərin atılmasına baxmayaraq, şəhər əhalisi Azərbaycanın cəbhəboyu bölgələrinin vətəndaşları kimi mənfur qonşuların məkrinə, hiyləsinə, təcavüzkar siyasətinə qarşı güclü və məğrur dayanıb. Hətta Gəncə sakinləri digər rayonların sakinləri ilə telefonla danışarkən onlara da ruh yüksəkliyi verirlər. Dağıntıların altından çıxarılan yaralı uşaqdan birinin - balaca Bəxtiyarın öz xilaskarlarına dili tutar-tutmaz dediyi "...Bu, mənim yadımdan çıxmayacaq..." sözləri ermənilərə, erməni vandalizmini dolayısı ilə dəstəkləyənlərə bir mesaj oldu. Azyaşlı öz xalqına məxsus - qürur, əyilməzlik, düşməndən qorxmamaq kimi mübarizlik nümayiş etdirdi. Bəxtiyarın üz-gözünə bulaşan qanlı göz yaşları, baxışları arxasından təbəssümlə birlikdə düşmənə nifrət boylandı.

Bu gün işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda savaş gedir. Prezident, Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistanı siyasi - diplomatik sahədə də məğlubiyyətə uğradır. Hər ötən gün düşmənin istər canlı qüvvə, istərsə də hərbi texnika baxımından imkanları tükənməkdədir. Cəbhənin bütün istiqamətlərində Azərbaycan Ordusu düşməni darmadağın edərək irəliləyir. Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun uğurları ilə davam edir. Hər gün cəbhədən sevindirici xəbərlər alırıq. Hər bir Azərbaycan sakini kimi Gəncəlilər də inanır ki, yaxın günlərdə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu bizə qələbə sevincini yaşadacaq, regionda sülh və sabitliyə ciddi təhlükə yaradan işğalçı erməni hakimiyyətinin təxribatçı əməllərinə birdəfəlik son qoyacaq. Ön cəbhədə əsgərlərimizin, arxa cəbhədə xalqın bir məqsədi var - Zəfər bayrağını azad olunmuş torpaqlarımıza sancmaq.

## İqor Korotçenko ermənilərə istehza etdi: Geri qaçmamaları üçün baraj dəstələri?



"Bir sıra erməni "Telegram" kanallarında Ermənistanda xüsusi təhlükəli cinayətlər törətdiklərinə görə uzun müddət azadlıqdan məhrum edilən məhkumlardan intihar dəstələrinin yaradılması barədə məlumatlar yayılıb. Onların cəbhədə ən şiddətli döyüşlərin getdiyi bölgələrə göndərilməsi planlaşdırılır".

SİA xəbər verir ki, bu fikirləri Rusiya Müdafiə Nazirliyi yanındakı İctimai Şuranın üzvü, "Milli Müdafiə" jurnalının baş redaktoru, Dünya Silah Ticarəti Analiz Mərkəzinin direktoru, hərbi-siyasi ekspert İqor Korotçenko "Telegram" sosial şəbəkədəki səhifəsində yazıb.

Rusiyalı hərbi-siyasi ekspert bu məsələyə istehzalı münasibət nümayiş etdirməklə yanaşı, erməni tərəfinin başını itirdiyinə işarə edib və bütün bunları aldıqları ağır məğlubiyyətlərlə əlaqələndirib. "Əvvəlcə qadın taborları. Sonra da erməni qoşunlarının arxa hissəsinə onların geri qaçmamaları üçün baraj dəstələri?..", deyə Korotçenko yazıb.

*Rövşən RƏSULOV*

## Maksim Şevçenko: "Azərbaycan "Böyük Ermənistan" xülyasını yoxa çıxardı"



"Azərbaycan ordusu Zəngilanı aldı!" SİA xəbər verir ki, bu sözləri özünün "Maks atakuet" Teleqram kanalında rus politoloq, jurnalist, teleaparıcı və ictimai xadim, 9 sentyabr 2018-ci il tarixdən VII çağırış Vladimir Bölgəsi Qanunvericilik Məclisinin deputatı, Rusiya Federasiyası Prezidenti yanında Vətəndaş Cəmiyyətinin İnkişafı və İnsan Hüquqları Şurasının üzvü Maksim Şevçenko yazıb.

O, növbəti dəfə Azərbaycan ordusunun əməliyyatlarını şərh edib: "Bu, o deməkdir ki, demək olar Dağlıq Qarabağdan kənar bütün ərazilər Azərbaycan tərəfindən işğaldan azad edilib. Beynəlxalq spekulyantların və geopolitik oyunçuların Azərbaycan və erməni xalqlarını şantaj edib uzatdıqları "sülh prosesi" artıq əvvəlki formada heç bir məna kəsb etmir.

*Aysel Məmmədova*

# Erməni terroru və qətliamları...

## İşğalçı ölkənin insanlığa sığmayan qəddarlıqları

***Terrorçuluq cinayətkarlığın ən təhlükəli formalarından biridir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması formasıdır. Çox təssüf ki. bu gün sivil dünyamızda terrorçuluq əməlləri törədilir. Özü də tarixi, dini, mədəniyyəti, dili olmayan ermənilər tərəfindən törədilir. Tarixdən bəllidir ki, 1883-cü ildəİrəvan şəhərinin 18. 766 nəfər əhalisinin 15. 992 nəfəri, 1866-cı ildə isə 27. 246 nəfərindən 23. 626 nəfəri, yəni 85,2 % azərbaycanlı olmuşdur. Böyük Ermənistan yaratmaq xülyasında olan ermənilərin həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir.***

Tarixdə heç bir dövlətçiliyi olmayan ermənilər zaman-zaman xalqımıza qarşı terror aktları törədiblər. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi şovinistlərinin davamlı olaraq etnik təmizləmə, ağlasığmaz terror aktlarına və soyqırımı siyasətinə məruz qalmış, günahsız insanlar, qocalar, uşaqlar, hətta, hamilə qadınlar insanlığa sığmayan amansızlıqla, qəddarlıqla qətlə yetirilmişdir. Təəssüf ki, hələ də nüfuzlu beynəlxalq qurumlar və qüdrətli dövlətlər erməni terror təşkilatlarının törətdikləri vandal aktlara ciddi münasibət bildirməmiş, terrorizmə qarşı mübarizədə həmrəylik nümayiş etdirməmişlər.

Dünyanın ən tanınmış terror təşkilatları sırasında Ermənistanın ASALA terror təşkilatının da yer aldığı hamıya bəllidir. ASALA, MAQ, “Erməni İttifaqı”, “Erməni Azadlıq Cəbhəsi” terror təşkilatları ilə yanaşı, “Armenakan”, “Hnçak”, “Daşnaksütun” partiyalarının da proqramının əsasını terrorizm, terror üsulları təşkil edir. XIX əsrin sonları və XX əsrdə bu və digər erməni terror təşkilatları Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmiş, on minlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetirmiş və ya ömürlük şikəst qalmalarına səbəb olmuşlar.




### ERMƏNİ TERRORÇULARININ TÜRK İCTİMAİ-SİYASİ XADİMLƏRİNƏ QARŞI QANLI TERROR AKTLARI

1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən “Daşnaksütyun” türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra “Daşnaksütyun” “türkü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!” əmrini vermişdir.

1918-ci il martın 30-31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırıma imza atmışlar. Bir neçə gün ərzində təkcə Bakıda 12 min insan sırf milli-etnik zəminində qətlə yetirilmiş, kütləvi qətliamlar Azərbaycanın Şamaxı, Quba, Qarabağ və digər bölgələrini də əhatə etmişdir. Yalnız 1918-ci ilin sentyabrında Nuru paşanın başçılıq etdiyi ordunun Bakını xilas etməsindən sonra bu qırğınların qarşısı qismən alınmışdır.

Tarixi faktlar göstərir ki, məhz ermənilərin fitvası ilə 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi xadimlərindən Nəsib bəy Yusifbəyli, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev vəhşicəsinə qətlə yetirilmişlər.

Erməni terrorçuları zaman-zaman İstanbulda, Romada, Berlində, Tiflisdə, Buxarada və digər şəhərlərdə tanınmış türk ictimai-siyasi xadimlərinə qarşı qanlı terror aktları həyata keçirmişlər.

“Terrorizm`ə qarşı mübarizə” haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinəəsasən terrorizm dedikdə, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi şəkildə qırılmasına, onlara bədən xəsarəti yetirməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına, habelə başqa ağır nəticələrə səbəb olan əməllərin törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönələn hədə başa düşülür.

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlıəhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

Qısa bir tariximiz bizə ermənilərin terorçu olduğunu bir daha göstərir. 16 sentyabr 1989-cu ildə “Tbilisi-Bakı” marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də “Şuşa-Bakı” marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə “Tərtər-Kəlbəcər” sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə “Tbilisi-Ağdam” marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Həmin gün “Şəmkir-Gəncə” avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında “LAZ” markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır. 30 noyabr 1990-cı ildg isə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

### ERMƏNİ TERRORUNUN ACI NƏTİCƏLƏRİ

Bir-birinin ardınca törədilən terror aktlarının davamı olaraq 09 yanvar 1991-ci ildə “Molodyoj Azerbaycana” qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. “Yevlax-Laçın” avtomobil yolunun 106-cı kilometrində 5459 saylı hərbi hissəyə məxsus “UAZ-469” markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır. Bu terror isə 19 iyun 1991-ci ildə baş tutmuşdu. 31 iyul 1991-ci ildə Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında “Moskva-Bakı” sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Beləliklə, Hadrut rayonunun Dolanlar kəndində “QAZ-53” markalı avtomaşın partladılması, Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında “KAVZ” markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılması, “Ağdam-Xocavənd” avtobusunun atəşə tutulması nəticəsində 5 nəfərin qətlə yetirilməsi, “Yevlax-Laçın” yolunda “VAZ-2106” markalı D 72-07 AQ nömrə nişanlı avtomaşın partladılması, Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında “UAZ-469” markalı avtomaşın partladılması və nəticədə onlarla insanların həlak olması erməni terrorunun acı nəticələridir. 20 noyabr 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında “Mİ-8” vertolyotunun atəşə tutulması nəticəsində vertolyot heyəti və sərnişinlər - Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - 19 nəfər həlak olmuşdur. Sadaladıqca sona yetməyən terror aktları erməni simasının göstəriciləridir.

02 iyun 1993-cü ildə Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşıİqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Başİdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdəRusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir. 01 fevral 1994-cü ildə Bakı dəmir yolu vağzalında “Kislovodsk-Bakı” sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. 18 mart 1994-cü ildə Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus “Herkules” tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşlar. 19 mart 1994-cü ildə Bakı metropolitenin “20 Yanvar” stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı “Sadval” ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. 03 iyul 1994-cü ildg Bakı metropoliteninin “28 May” və “Gənclik” stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 1989-1994-cü illərdə erməni terrorçuları Dağlıq Qarabağda nəqliyyatda 29 iri terror aktı təşkil etmiş, iki mülki vertolyotu və 2 təyyarəni vurmuşlar.

Bu gün də terror əməllərini davam etdirirlər. Bu gün Ermənistan tərəfindən qədim Gəncə şəhəri hərbi cinayətə və terrora məruz qalıb. Azyaşlı uşaqların erməni terroruna məruz qalması onların növbəti vəhşiliyin nümunəsi oldu. Ermənistan silahlı qüvvələrinin Tərtərdə dəfn mərasimində iştirak edən mülki əhalini atəşə tutması bu ölkənin terrorçu və cinayətkar mahiyyətini bir daha ortaya qoymuş oldu. Bu, təcavüzkar, işğalçı ölkənin insanlığa sığmayan qəddarlıqlarıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistanın hərb və sülh davranışlarındakı saxtakarlıqları



Müharibə diplomatiyanın sonuncu addımıdır. Bu aşkar həqiqəti sağlam düşüncəsi olan heç kəs inkar edə bilməz. Müharibə ziddiyyətlərin toqquşduğu məqamdır. Həqiqətən bəşər övladı tarixin bütün dövrlərində çox müxtəlif səpkili münaqişələrin və müharibələrin ağrı-acılarını yaşamış və daim dinc münasibətlər axtarışında olmuşdur.



Statistikaya görə, dünyaya üstüstə yalnız 250 il dinc yaşamaq nəsib olub. Ötən əsrin 90-cı illərində beynəlxalq hüquq prinsiplərinin kobud şəkildə pozulması nəticəsində yaranan ərazi münaqişələri yaşadığımız əsrin tarixləşən ilk illərində və indiki günümüzdə də, demək olar ki, danışıqlar yolu ilə həllini tapmamışdır. Məhz bu dövrə təsadüf edən münaqişələrin bolluğu bir daha təsdiqləyir ki, dövlətlərarası münasibətlərin çağdaş mənzərəsi sırf nəzəri imperativlərdən uzaq yaşam tərzinə malikdir. Bu kimi fikirlərin əsasında konfliktlərin dinamik inkişaf statistikası durur.

Əgər ötən əsrin əvvəllərində hər il iki-üç konflikt qeydə alınırdısa, 1990-1997-ci illərdə bu rəqəm 33-37 arasında olmuşdur. Yalnız XX əsrin 90-cı illərində 100-dən çox kiçik və böyük müharibə baş vermiş, bu müharibələrdə 90-dan çox ölkə (İkinci Dünya müharibəsində iştirak edən ölkələrdən xeyli çox) iştirak etmiş və 9 milyondan artıq adam həlak olmuşdur.

Bu sırada ötən əsrdən miras qalan və bu gün də öz həllini tapmayan Dağlıq Qarabağ münaqişəsi daha uzunmüddətli problem kimi özünəməxsusluğu ilə diqqəti çəkir. Birtərəfli qaydada suveren Azərbaycan dövlətinin ərazisinin 20 faizdən çoxu qəsbkarlıq niyyəti ilə qonşu Ermənistan dövləti tərəfindən təcavüzə məruz qalmış və 1 milyondan artıq dinc əhali öz yurd-yuvasından silah gücünə qovulmuşdur.

Beynəlxalq münasibətlər sistemində dövlətlərin davranışı problemi elmi-nəzəri cəhətdən yetərli dərəcədə oyrənilməyən bir istiqamətdir. Dinc dünya arzusu ilə yaşayan bəşər övladı üçün bu məqam olduqca önəmlidir. Axır dünyanın bütün dövlətləri zaman-zaman bir ailənin üzvləri olduqlarını dilə gətirməklə öz aralarındakı ziddiyyətli məqamların həllinə cəhd göstərmiş, ortaq davranış modellərinin həyata vəsiqə alması istiqamətində addımlar atmaqda israrlı olmuşlar. Bu gün tez-tez səsləndirilən beynəlxalq hüquq norma və prinsipləri də məhz beynəlxalq hüquq subyektləri olan dövlətlər arasındakı hərc-mərcliyi aradan götürmək, bir-birinin suverenlik hüququna, ərazi bütövlüyünə hörmət etmək, daxili işlərinə qarışmamaq, dinc şəraitdə yaşamaq və əməkdaşlıq etmək niyyəti daşıyır və BMT Nizamnaməsinin təməl prinsipləri kimi üzv dövlətlər üçün, sözün əsl mənasında, "əxlaq kodeksi"dir.

Təəssüflə qeyd olunmalıdır ki, bütün cəhdlərə baxmayaraq, bəşər övladı bu gün də dünya nizamını arzuladığı biçimdə qurmağda acizdir. Bu səbəbdən tədqiqatçılar arasında belə bir qənaət formalaşıb ki, dövlətlərin davranışını öyrənmək atomların davranışını öyrənməkdən də çətindir. Bu isə dünyada aqressiv və təcavüzkar dövlətlərin sırasının artması, münaqişələrin daha intensiv faktora çevrilməsinə yol açır.

Qlobal və regional təhlükəsizliyə birbaşa təhdid yaradan Dağlıq Qarabağ münaqişəsinin həllində cəsarətsizlik nümayiş etdirməklə dünyanın nüfuzlu ölkələri olan ABŞ, Fransa və Rusiyanın davranışı elmi-nəzəri cəhətdən ziddiyyətlidir. Tarixən dünya nizamını formalaşdırmaq imkanına malik olan böyük ölkələr nədənsə Azərbaycanın haqq işinə uzun bir dövrdə tutarlı dəstək verməmişlər. Halbuki buna onların imkanları var idi. Hələ üstəlik, təcavüzkar dövlətə və separatçı rejimə açıq-aşkar yardımlar göstərməklə münaqişənin ömrünü uzatmışlar, baxmayaraq ki, bu ölkələr hər biri ayrı-ayrılıqda Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü tanıyan, siyasi-diplomatik, iqtisadi-ticarət əlaqələri olan dövlətlərdir.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək cəhdlərinə 30 ilə yaxın bir dövrdə kölgə salan Minsk qrupunun həmsədrləri olan bu dövlətlərin münaqişənin həll olunmasına maraqsızlığı əslində beynəlxalq münasibətlər nəzəriyyələrindəki bəzi boşluqlardan qaynaqlanır. Belə bir hipoteza mövcuddur: "Həll olunmayan münaqişə yoxdur. Buna vaxt tələb olunur. Vaxta kömək etmək lazımdır". Bu ritorika ilə uzun bir dövr erməni dəyirmanına su tökən və bu gun də haray çəkib status-kvonu münaqişənin həlli üçün vacib sayanlar yenə də vaxt qazanmaq cəhdindədirlər. Ötən illər ərzində düşmən torpaqlarımızda istehkamlar qurub, hərbi güc cəmləşdirib, məskunlaşma siyasəti aparıb, tarixi abidələrimizə, mədəni irsimizə münasibətdə əsl vandalizm siyasəti yeridiblər. Azərbaycan tərəfi ən mötəbər tribunalardan öz haqq səsini ucaltsa da, buna məhəl qoymayıblar. Azərbaycanın beynəlxalq arenada qazandığı pozitiv imic, topladığı guc, apardığı siyasət kimlərinsə ağrısına səbəb olub. Diplomatiyada ən çətini dillə deyilməyəni anlamaqdır.

Təcavüzkar dövlət və onun havadarları papaqlarını ortaya qoyb Azərbaycanın hansı davranış nümayiş etdirəcəyini anlasaydılar, bu gün qapı-qapı düşüb dilənməz, yalvarmazdılar. Çünki Prezident İlham Əliyev həmsədr dövlətlərin davranışının qərəzli olduğunu dəfələrlə və qətiyyətlə səsləndirərək Azərbaycan torpaqlarının bir qarışının da danışıqların predmeti olmayacağını bildirmişdi. Ermənilərə "Qarabağ Azərbaycandır!" mesajı çoxdan verilmişdi. Beynəlxalq münasibətlər nəzəriyyələrində indi dövlətlərin davranışı onların başçılarının davranışı ilə eyniləsdirilir. Aydınlıq üçün bildirək ki, dövlətlərin davranış normaları yalnız siyasi öhdəlikdir, yəni hüquqi akt deyildir.

Hələ ötən əsrin 70-ci illərinin əvvəllərində ingilis siyasətçisi Neydjel Forvard dövlət başçılarının qərar qəbul etməsinə təsir göstərən 6 əsas amili göstərmişdi: milli bütövlüyün, yəni dövlətin suverenliyinin qorunması; milli təhlükəsizliyin, ilk növbədə hərbi təhlükəsizliyin təmin olunması; dövlətin beynəlxalq münasibətlər sistemində öz obrazını formalaşdırması və qorunması; diqqəti cəlb etmək; dövlətin beynəlxalq hüquq subyekti olaraq öz öhdəliklərini yerinə yetirmək iqtidarında olmasını nümayiş etdirmək və eyni dərəcədə təhdid yaratmaqla öz çəkisini qoruyub saxlamaq; beynəlxalq davranışın standartlarına, norma və prinsiplərinə hörmət nümayiş etdirmək.

Biz bugünkü Azərbaycan reallıqlarını göstərilən ardıcıllıqla dəyərləndirsək, Prezident İlham Əliyevin fəaliyyətinin son dərəcə uğurlu olduğunu görərik. Onun dövlətin maraqlarının hərtərəfli təmin olunması səmtində düzgün qərar qəbul etmək bacarığı Azərbaycanın qısa zaman biçimində qüdrətli dövlətə çevrilməsinə zəmin yaratmışdır. Biz xoşbəxt xalqıq ki, dövlətimizin başında sözü və əməlləri üst-üstə düşən İlham Əliyev kimi şəxsiyyət dayanır. Bu gün İlham Əliyevin Ali Baş Komandan kimi qəbul etdiyi bütün qərarlar xalq tərəfindən alqışlanır və bizi zəfər gününə yaxınlaşdırır.

Bu gün Qarabağda yüzlərlə əsgərini itirən, döyüş texnikasını qoyub qacan düşmən və onların ağılsız rəhbərliyi biməliydi ki, aqibətləri elə belə olmalı idi. Artıq dalana qısılan təcavüzkar "Torpaq üstündə yaşayanındır" xülyasının sona çatdığını dərk edib, çünki hərbi gücümüzü görüb. Hərbi güc isə siyasət vasitəsidir və qarşı tərəfə real və intensiv təsir göstərmək baxımından həm dövlətlərarası, həm də beynəlxalq münasibətlərdə inkar olunmur. Bununla bağlı D.Stosincer demişdir: "Güc dövlətin real və potensial imkanlarından istifadə edə bilmək imkanıdır. Bunun effektiv olmasını digər dövlətlərin yaşam tərzindəki və davranışındakı dəyişiklikdə axtarmaq lazımdır". Diplomatiyanın əsas aləti olan danışıqlar da bəzən güc faktoruna söykənir. General Şarl de Qoll bunu çox incəliklə vurgulamışdır: "...güclünün danışıqlara ehtiyacı yoxdur, gücsüzə isə danışıqlar çox baha başa gəlir".

Bu gün biz ona görə güclüyük ki, xalq öz rəhbərinin ətrafında birləşərək səngərdəki əsgərinin yanındadır. Biz ona görə güclüyük ki, yanımızda yumruğunu havada düyünləyib, hər dəqiqə düşmənin başına vurmağa hazır olan qardaşlarımız və dostlarımız var.

Diplomatiya danışıqlar elmidir. Amma danışıqlara hərb dövrünün geridə qaldığı anlamına gətirilməməlidir. Danışıqlara müdafiə istehkamı kimi yox, birbaşa həmlə aləti kimi baxılması daha doğru olardı. Açıqlamalarda göstərildiyi kimi, danışıqlar beynəlxalq hüquq subyektləri (dövlətlər, hökumətlər) arasında özlərinin milli təhlükəsizliyinə təhdid yaratmayan, siyasi, iqtisadi, hərbi və digər sahələrdə milli maraqlarına cavab verən, gələcəkdə mümkün həddə gözlənilən nəticələr əldə olunmasına yönələn bağlaşmaların beynəlxalq-hüquqi müstəvidə könüllü razılaşdırılması yolunda apardıqları dinc (intellektual) qarşıdurmadır.

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Moskva razılaşmasında birmənalı şəkildə qeyd olunur ki, danışıqların forması dəyişməyəcək. Bu o deməkdir ki, bir daha qondarma rejimin danışıqlarda tərəf kimi iştirakı təklif olunmayacaq. İndi şərtləri biz irəli sürəcəyik. Bizim nə Minsk qrupunun, nə də Ermənistanın nazı ilə oynamaq fikrimiz var. BMT Baş Assambleyasının 8 dekabr 1998-ci il tarixli "Beynəlxalq danışıqların aparılması prinsipləri və şərtləri haqqında" qətnaməsində göstərildiyi kimi, danışıqlar vicdanlı aparılmalıdır. Prezident İlham Əliyev xalqa son müraciətində xüsusi vurğulayaraq bildirmişdir ki, Azərbaycan dövlətinin milli təhlükəsizliyinə, ərazi bütövlüyünə təhdid yaratmaq heç kəsə nəsib olmayacaq. Biz haqq yolundayıq. Qələbə bizimlədir!

***Vəliyulla Cəfərov,***
***BDU-nun dosenti***

# Cümşüd Nuriyev: "Dünyada ilk dəfə terroru dövlət səviyyəsində Ermənistan həyata keçirib"

**- Cümşüd müəllim, ABŞ Dövlət Departamenti vətəndaşlarına Azərbaycanda terror törədilə biləcəyi xəbərdarlığını edib və onları ehtiyatlı olmağa çağırıb. Sizcə, Ermənistan Azərbaycanda terror törədə bilərmi?**

- ABŞ Dövlət Departamentinə bir vətəndaş kimi minnətdarlığımı bildirirəm. ABŞ rəsmən Azərbaycanın dövlət qurumlarının söylədiyi fikirləri təsdiqlədilər. Çünki bizim Dövlət Təhlükəsizlik Xidməti məlumat vermişdi ki, Azərbaycanda erməni terroru baş verə bilər. Bu ermənilərin xislətinə aid olan bir məsələdir. Dünyada ilk dəfə terroru dövlət səviyyəsində Ermənistan həyata keçirib. Bunların xüsusi hazırlıq yerləri var, bu hazırlıq yerləri indiki İran ərazisində və Bekan vadisindədir. Onun birində mən özüm olmuşam. Çox qəribə bir şeydir, deməli daş vannalar yonublar və o vannalara süd töküb, cavan uşaqları, yəni 12-15 yaşında oğlan uşaqlarını yığırlar ora və onlara çox yüksək səviyyədə xidmət göstərilir. Hər dəfə də, bunların yeməyinə azaçıq narkotika qatılır. Eyni zamanda, o cavan oğlan uşaqlarına süd vannalarında çox gözəl qızlar xidmət göstərir. Həmin oğlanlara burda aşılayırlar ki, sizə cənnətdə belə xidmət olunacaq, əgər siz verilən tapşırığı yerinə yetirsəniz. Yəni terroru mənimsəmək və terrorçu kimi yetişmək bunların qanındadır.



Müsahibimiz siyasi elmlər doktoru, professor Cümşüd Nuriyevdir

**- Ermənilər bizim səmimiyyətimizdən və humanistliyimizdən istifadə edib, öz çirkin məqsədlərini reallaşdırmağa çalışırlar?**

- Bəli, biz də uşaq doğulanda, qulağına Qurandan ayələr oxuyuruq, amma ermənilər doğulan uşağın qulağına S.Kaptukyanın sözləri var, həmin sözləri oxuyurlar. Yəni doğulmuş uşağın qulağına S.Kaptukyanın "ey aram sən ermənisən, sən xristiyansan, sən "böyük Ermənistan" uğurunda mübarizə aparmalısan, bir şeyi bilməlisən ki, türk bizim düşmənimizdir" sözlərini oxuyurlar, Belə bir ruhda böyüyən bir toplumun nümayəndəsi birmənalı şəkildə terrora dəstəkdir, terrora meyillidir. Dünyada yeganə partiyadır ki, ermənilərin "Daşnakstyun" partiyasının nizamnaməsində terror məsələsi əks olunub. Baxmayaraq ki, terror fransız mənşəli sözdür, sonradan bu söz terrora keçib. Ermənilərdə istənilən məqsədə çatmaq üçün, istənilən üsullardan istifadə etmək ayıb sayılmır. Yəni çirkin niyyətlərini reallaşdırmaq üçün mənəvi qadağa yoxdur, əxlaq çərçivəsi mövcud deyil, bir sözlə bunlarda insanlıqdan uzaq çox şey var.

**- Azərbaycan cəmiyyəti cəbhədə acı məğlubiyyətlər yaşayan Ermənistanın ölkə daxilində terror əməlləri törədə biləcəyini anlayır. Bu baxımdan əhalinin tam şəkildə ehtiyatlı olduğunu demək olarmı?**

- Ermənilərin xaç atası sayılan M.Xoranasi 1858-ci ildə erməni xalqının tarixi ilə bağlı çap etdirdiyi əsərində yazıb ki, "mən utanıram öz xalqım haqqında danışmağa, çünki bizimkilər vicdansız, şərəfsiz və qanunsuzu sevənlərdir". O ermənilərə xalq deməlidir də, tayfa deməyəcək ki? Yəni, bunu ermənilərin "xaç atası" deyir, mən demirəm ki. Ona görə də, Bakıda məhz terrorun olacağı ehtimalı çox yüksəkdir. Amma birincisi, Azərbaycan dövlət səviyyəsində ona hazırlaşır, ikincisi, xalqda kifayət qədər bu məsələlərə hazırdır və bunun ciddiliyini qəbul edirlər. Çünki əvvəlki günlərlə avtobuslarda polis çox yüksək səviyyədə yoxlanış aparır. Ona görə də, inaşallah Bakıda və Azərbaycanın digər şəhərlərində terrorun olmayacağına ümid edirəm. Yəni terrorun olacağını biz bilə-bilə əgər buna qarşı təbliğat aparırıqsa, deməli bunun baş tutması mümkün deyil.

***Gülyana***



# News.Ru: Təcavüzkar Ermənistanın hərbi və iqtisadi çöküşü başlayıb

*İrəvanın düşdüyü yeni reallıqlar ölkənin bütün hərbi, sosial və iqtisadi potensialını məhv edir*

Ermənistanın Qarabağdakı döyüşlərdə və siasi-diplomatik arenada ağır məğlubiyyətə uğraması eyni zamanda iqtisadi fəlakətlə müşayiət olunur. Rusiyanın nüfuzlu News.Ru İnformasiya Agentliyi "Avand" Mərkəzinin materialları əsasında İqor Nikifirovun analitik yazısını dərc edib. "Ermənistan iqtisadiyyatı niyə çökür" başlıqlı məqalədə bunun səbəblərinə aydınlıq gətirib. Məqalənin tərcüməsini oxucularımıza təqdim edirik. Ermənistanda hərbi vəziyyətin elan edilməsi və 55 yaşınadək kişilərin hərbi xidmətə çağırılması səbəbindən tam səfərbərlik rejiminin tətbiqi, onsuz da aşağı demoqrafik göstəricilərə sahib olan ölkənin bir çox iqtisadi sektorunun fəaliyyətini məhdudlaşdırdı. Yerli iş adamları istehsal fəaliyyətlərini dayandırmağa məcbur olduqlarını söyləyirlər.

Orduya cəlb olunan mikro sahibkarlar tamamilə işdən uzaqlaşırlar və kiçik və orta sahibkarlar həm səfərbər olduqları, həm də işçilərin əksəriyyətinin səfərbər olduqları üçün məhsuldarlığın kəskin azaldığını görürlər. İri sahibkarlıq subyektləri də ümumi iqtisadi tənəzzülün mənfi təsirlərini yaşayır. Pandemiyanın təsiri nəticəsində iqtisadi fəaliyyətdə ilin əvvəlində qeydə alınan göstəricilərlə müqayisədə avqustda 17,4% azalma baş verdi və bu, onsuz da böhranda olan Ermənistan iqtisadiyyatına ağır zərbə oldu. Buna əlavə olaraq Qarabağdakı ciddi itkilər və işçi qüvvəsinin real sektordan köçürülməsi bu tendensiyanın artmasına səbəb olacaqdır. Artıq erməni sahibkarların qarşılaşdıqları çətinliklərdən mediada açıq şəkildə bəyan etməyə başladıqları barədə məlumatlar yer alır.

Beləliklə, istehsal prosesinin tamamilə və ya qismən dayandırılması gəlir və mənfəətə ciddi mənfi təsir göstərir və noyabr ayında vergi ödəmələrində kəskin azalma gözlənilir. Bu da öz növbəsində Ermənistan büdcəsinin maliyyələşdirilməsinə mənfi təsir göstərəcəkdir. Beləliklə, Ermənistan Maliyyə Nazirliyinə görə, dövlət vergi gəlirləri ilə bağlı proqnozlar yerinə yetirilməyəcəkdir.

Erməni sahibkarların fikrincə, ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi olan sahələrdə əmək ehtiyatlarının fəaliyyətinin davam etdirilməsi vacib şərtlərdən biridir və nəzərə alınmalıdır ki, istehsalda böyük payı olan müəssisələrin, eləcə də strateji sahələrin işçi qüvvəsi öz fəaliyyətlərinə cəlb olunsun , beləliklə də döyüş bölgəsindəki iştirakla deyil, öz iş yerlərində dövlət üçün və ordu üçün böyük fayda versin. Ermənistan təcavüzkar siyasəti ilə əlaqədar olaraq müvafiq yaşda olan bütün kişiləri döyüşə cəlb etdi. Müqayisə üçün qeyd etmək olar ki, İkinci Dünya Müharibəsi dövründə istehsalatda işləyən insanlar səfərbər edilməmiş və beləliklə hərbi əməliyyatların ölkə iqtisadiyyatına təsiri minimuma endirilmişdir.

Müharibə dövründə əhalisinin dörddə biri yoxsulluqdan əziyyət çəkən Ermənistan vətəndaşlarının maliyyə vəziyyətinin pisləşməsi (sosial ayırmaların, əmək haqlarının vaxtında ödənilməməsi səbəbindən) əhalinin alıcılıq qabiliyyətinin azalması fonunda tələbin azalmasına və nəticədə biznes sektorunun inkişafına ağır zərbə olacaqdır.

Bundan əlavə, ölkənin hərbi itkiləri və məğlubiyyətə yaxın olması əlavə mənbələrə ehtiyac duyur. Onsuz da fondlar yaratmaqla orduya kömək etmək üçün yoxsul əhalinin son qəpik-quruşlarını cəlb etmək Ermənistan vətəndaşlarının rifahını daha da pisləşdirib. Bu gün Ermənistan dövləti rasionallığını itirərək hər cür düşünülməmiş hərəkətlərə əl atarar, bunların hamısının onlar üçün sonun başlanğıcı olduğunu hələ dərk etmir.

Ermənistanın sentyabr ayındakı son rəsmi statistikasına görə, 1213 pərakəndə satış obyekti yalnız koronavirusun təsiriylə bağlanıb, 5058 müvəqqəti olaraq dayandırılıb. Bu, ölkədə fəaliyyət göstərən bütün pərakəndə satış obyektlərinin təxminən 50% -ni təşkil edir. Bundan əlavə, inşaat sektorunda 23 müəssisə ləğv edilmiş, 231 müəssisə müvəqqəti dayandırılmışdır. 205 daşınmaz əmlak şirkətinin fəaliyyəti müvəqqəti dayandırılmış, onlardan 5-i ləğv edilmişdir. "Digər xidmətlər" göstərmə sahəsində fəaliyyət göstərən şirkətlər arasında 234 ləğv edilmiş və 1057 müvəqqəti fəaliyyətini dayandırmışdır. Peşə və elmi-texniki fəaliyyətlə məşğul olan 67 müəssisə ləğv edilmiş, 493 müəssisənin fəaliyyəti dayandırılmışdır. 39 inzibati və köməkçi şirkətin qeydiyyatı ləğv edilmiş və 449 belə şirkətin fəaliyyəti müvəqqəti dayandırılmışdır.

Döyüş əməliyyatlarının başlaması ilə yuxarıda göstərilən sahələrdə fəaliyyət göstərən bir çox əlavə obyekt bağlanıb. Bu vəziyyətdə, yüksək miqdarda (1000 nəfər əhaliyə 5-6 nəfər) xalis miqrasiya əmsalı (immiqrantların mühacirlərə nisbəti) olan bir ölkədə, iqtisadi vəziyyətin pisləşməsi səbəbindən əmək resurslarının xaricə axını artacaqdır.

Sosial problemlərin hücumuna tab gətirə bilməyən yerli sakinlərin son nəticədə dövlətə qarşı çıxmaları da mümkündür. Bəzi müəssisələr onsuz da müharibədən sonra dövlətdən təzminat tələb edəcəklərini iddia edirlər. Xüsusilə payız əkin mövsümündə xammal tədarük edən kənd təsərrüfatı sektorunda bir çox sahibkarın qarşılaşacağı məhdudiyyətlər Ermənistanda məhsuldarlığın aşağı düşməsinə səbəb olacaqdır.

Bu da öz növbəsində sahibkarlıq subyektlərinə mənfi təsir göstərəcək və ərzaq tədarükünü azaldacaqdır. Tələbin azalması bu məhsulun qiymətlərinin kəskin artacağını proqnozlaşdırmağa imkan verir. Ermənistan onsuz da ərzaq məhsullarının böyük hissəsini idxal edir və bu müddətdə məhdudiyyətlərlə üzləşir. Üstəlik, ölkənin aşağı daxili məhsuldarlıq göstərməsi yenidən proqnozlaşdırılan qida böhranının başlamasını sübut edir.

Ermənistan hökumətinin əhalisinin diqqətini ağır sosial-iqtisadi böhrandan yayındırmağa başladığı yeni müharibə ilə əlaqəli Ermənistanın itkiləri və Azərbaycanın güclü əks-hücum əməliyyatı onsuz da ciddi sosial-iqtisadi problemlərə və hərbi məğlubiyyətə əlavə edilib. İndi isə bu vəziyyətdən çıxmaq üçün Paşinyan xarici kreditlər, ianələr və yardımlara ümid edir. Xüsusilə Rusiya və Avrasiya İttifaqının dəstəyinə güvənir. Ancaq mövcud Ermənistan hökumətinin Rusiyaya qarşı mövqeyi, o cümlədən rus sahibkarlarına və sərmayələrinə təzyiq göstərməsi, Moskvanın gözlənilən dəstəyi verməyəcəyini təxmin etməyə imkan verir. Çünki heç kim etibarsız bir ölkənin yükünü çəkməkdə maraqlı deyil.

***Tərcümə etdi: Elçin Bayramlı***

# Eks-prezidentlər nədən danışıblar?



Ermənistan və Dağlıq Qarabağın keçmiş prezidentləri ilk dəfə Qarabağ məsələsi ilə tək bir görüş keçiriblər. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ter-Petrosyanın mətbuat katibi Arman Musinyan informasiya yayıb.

İnformasiyaya əsasən, Dağlıq Qarabağda və Ermənistandakı həyecan verici vəziyyətlə əlaqədar olaraq Ermənistanın keçmiş prezidentləri Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyanın iştirakı ilə məsləhətləşmə keçirilib. Həmçinin bildirilir ki, qondarma Dağlıq Qarabağın da qondarma keçmiş prezidentləri Arkadi Qukasyan və Bako Saakyanın məsləhətləşmələrdə iştirak edib. Xatırladaq ki, keçmiş prezidentlər ilk dəfə eyni masada görüşürlər.

# Azərbaycan dünya birliyini necə xilas etdi?

***Dağılmaqda olan dünya birliyi, nüfuzunu itirmiş BMT, ATƏT kimi beynəlxalq təşkilatlar Azərbaycanın sayəsində öz mövqelərini qaytara, dünya sürükləndiyi fəlakətdən qurtula bilər. Necəmi? Bu yazıda izah edəcəyik.***

**I Yazı**

Tarix boyu dünyada müharibələr ara verməyib, hökmranlıq, torpaq və sərvət uğrunda dövlətlər bir-biri ilə döyüşüb, bu qırğınlarda milyardlarla insan ölüb, dünya qan gölünə çevrilib, yüz minlərlə şəhər, kənd xarabaya çevrilib. Obrazlı desək, planetimizin torpaqları qanla suvarılıb. Keçən əsrdə isə 2 böyük dünya müharibəsi və onlarla kiçikmiqyaslı müharibələr baş verib. 100 milyon insan ölüb. Artıq dünyada sülhün təminatı üçün beynəlxalq birliyə, beynəlxalq qanunlara ehtiyac var idi...

### BMT niyə yarandı və nə fayda verdi?

Tarixin ən dağıdıcı, ən böyük qırğınlarla müşayiət olunan müharibəsi- 2-ci Dünya Müharibəsindən sonra artıq bəşəriyyətin aparıcı qüvvələri buna son qoymaq üçün hərəkətə keçdi. Dünyadakı problemləri sülh yolu ilə həll etmək üçün Birləşmiş Millətlər Təşkilatı yaradıldı. Sərhədlərin dəyilməzliyi haqda beynəlxaql konvensiya və sair çox sayda beynəlxalq sənədlər imzalandı. Bundan sonra müharibələr səngidi, bir neçə kiçik müharibəni nəzərə almasaq dünyada sülh hökm sürməyə başlamışdı. Ən azı odlu müharibələr, soyuq müharibə müstəvisinə keçmişdi.

Lakin sosialist blokunun və onun aparıcı qüvvəsi olan SSRİnin dağılmasından sonra beynəlxalq qanun və konvensiyalar bir kənara atıldı. Əsasən, Avropada və Asiyada bir neçə ölkə parçalandı, lokal müharibələr baş verdi. Sərhədlərin dəyilməzliyi haqda beynəlxalq konvensiya da, necə deyərlər, getdi işinin dalınca. BMT buna göz yumdu...

Bu hadisələr çox pis bir presedent yaratdı. Bəzi dövlətlər digərlərinin ərazilərini işğal edib özünə qatmaq üçün hərəkətə keçdi. Bəzən, Qərb dövlətlərinin mənafeləri tələb edəndə işə qarışma haları da oldu. Məsələn, İraq Küveyti işğal etməyə girişəndə beynəlxalq birlik sərt reaksiya verdi- İraqa qarşı hərbi müdaxilə etdi və problemi aradan qaldırdı. Lakin artıq parçalanmış Yuqoslaviyanın bir respublikası olan Serbiyanın ərazi bütövlüyünə qarşı həmin beynəlxalq birlik təcavüz etdi və onun daxilində yerləşən Kosovanı müstəqil dövlət kimi tanıdı.

Onsuz da hələ ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan torpaqlarının işğalına cəhd edən Ermənistan bu ikili siyasətdən bəhrələnməyə başladı və Azərbaycanın ərazilərinə hücuma keçdi. Lakin nədənsə, bu dəfə həmin beynəlxaq birliyin səsi çıxmadı, işğalçı ölkəyə qarşı ciddi hərbi, siyasi, iqtisadi təzyiqlər edilmədi. Sadəcə, BMT TŞ-nin qətnamələri qəbul edildi, digər beynəlxalq təşkilatlar tərəfindən bəyanatlar verildi, amma Ermənistan bu qətnamələrə tüpürüb öz işğalçı hərəkətlərini davam etdirdi, özü də beynəlxalq briliyin aparıcı dövlətlərinin köməyi ilə.

### Beynəlxalq birlik necə fiaskoya uğradı?

BMT TŞ xüsusən də təhlükəsizlik məsələsində dünyanın ən əsas qərarverici orqanıdır. Onun qəbul etdiyi qərar və qətnamələr mütləq yerinə yetirilməlidir. Lakin Ermənistan işğalına qarşı verilən və onun zəbt edilən Azərbaycan torpaqlarından dərhal və qeydşərtsiz çıxması tələb edən hər qətnamədən sonra işğalçı ölkə yeni-yeni ərazilər işğal etməyə başladı. Beləliklə, arıdıcıl olaraq 4 qətnamə qəbul edildi, lakin keçən 27 ildə heç nə dəyişmədi. Konkret olaraq, Ermənistan beynəlxaq birliyə, dünya sülhünə, beynəlxalq hüquqa tüpürdü, BMT-ni, ATƏT-i heçə saydığını bütün dünyaya nümayiş etdirdi.

Beləcə, dünyada BMT-nin nüfuzu sıfıra düşdü. Dövlətlər artıq öz problemlərini özlərinin həll etməsi üçün çalışmağa başladılar. Təcavüzkar dövlətlər isə öz hərəkətlərini daha rahat davam etdirmək üçün presedent əldə etdilər. Hər iki qütbə aid olan ölkələr silahlanmanı artırmağa girişdilər. Dünyada sülhün, dostluğun təminatı üçün bəşər tarixinin ən böyük nailiyyəti olan Birləşmiş Millətlər Təşkilatı faktiki olaraq kağız üzərində bir formal təşkilata çevrildi. Bu isə planetimiz və bəşəriyyət üçün çox böyük təhlükə olmaqla bərabər, ağır zəhmət bahasına əldə edilmiş beynəlxalq sülhün məhv olmasına, dünyanın yenidən oda bürünəcəyinə gətirib çıxaracaq bir prosesə start verdi.

Yaxın Şərqdə və Afrikada hərbi təcavüzlərdən tutmuş, vətəndaş müharibələrinə, terror aktlarınadək hər cür qanlı qarşıdurmalar vüsət aldı. Əksər halda isə bunları beynəlxaq birliyin aparıcı dövlətləri, əsasən də Qərb dövlətləri özü təşkil edirdi. Beynəlxalq hüquq artıq işləmirdi...

Kimsə qolunu çırmalayıb bu prosesi dayandırmalı, bu beynəlxalq birliyin nüfuzunu qaytarmalı, BMT-nin tələb etdiyi qətnamələrin həyata keçirilməsini təmin etməli idi. Bu işi də 30 ildir torpaqları işğal edilən, buna baxmayaraq qan tökülməsinə razı olmayıb, problemin sülh yolu ilə həlli üçün beynəlxalq birliyə güvənən və sülh üçün bütün mümkün imkanlardan sonadək istifadə edən bir ölkə üzərinə götürdü. Bu Azərbaycan idi.

### Azərbaycan dünya birliyini necə qorudu?

Azərbaycan sülh üçün ən son imkanlardan belə istifadə edəndən sonra, BMT-nin, ATƏT-in yerinə yetirməli olduğu bir işi öz üzərinə götürdü. İşğal, soyqırım və terror prosesini dayandırmağı, beynəlxalq konvensiyaların, digər sənədlərin dünyada qüvvədə olduğunu, dünya ölkələri üçün çox pis bir presedentin qarşısını almağı fövlqəldövlətlər üzərinə götürməli olduğu haqda, bunu dünyadakı kiçik bir dövlətin- Azərbaycanın həyata keçirməsi, beynəlxalq hüquqa tüpürən, BMT-nin de-fakto sıradan çıxmasına çalışan qüvvələrə tərs şillə oldu.

Azərbaycan diplomatlarının, siyasətçilərinin beynəlxalq hüququ qorumaq cəhdləri heç bir nəticə vrməyəndə, bu işi öz üzərinə Azərbaycan Silahlı Qüvvələri götürdü. Və qısa müddətdə göstərdi ki, istənilən problemin 2 həll yolları var- sülh və güc- bunlardan biri baş tutmayanda digərinin tətbiq edilməsi ilə problemi həll etmək olar.

Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında öz ərazilərindən işğalçı Ermənistanın hərbi qruplaşmalarını sürətlə qovub çıxarmağa başladı. Terror dövləti Ermənistan cəbhədə ağır məğlubiyyətə uğradığından tarixi xislətinə əl atdıcəbhədən uzaqdakı iri şəhərləri qadağan olunmuş raketlərlə atəşə tutaraq onlarla dinc sakini, körpəni qorxunc terrror aktı ilə qətlə yetirdi. Beynəlxalq birlik isə hələ də susurdu. Lakin Azərbaycan Ordusunun buna cavabı o qədər ağır oldu ki, Ermənistan ordusu məhv olmaq dərəcəsinə gəlib çatdı. Azərbaycan Ordusu erməni ordusu kimi mülki şəxsləri raket atəşinə tutmadı, yalnız Qarabağdakı hərbi obyektlərə və terrorçu dəstələrə zərbə endirdi.

Ordumuzun əməliyyatları o qədər mükəmməl, o qədər peşəkar səviyyədə həyata keçirilir ki, nəinki dünyanın nüfuzlu hərbi mütəxəssisləri, hətta erməni mütəxəssisləri belə heyrətini gizlədə bilmir və açıq deyirlər ki, bu ordu ən qısa müddətdə işğal olunmuş bütün əraziləri azad edəcək. Elə bu gün Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Hovhannisyanın "Azərbaycan Ordusu bizdən 12 dəfə güclüdür, bunun nə demək olduğunu başa düşürsünüz?" sözləri ordumuzun necə bir qüdrətə malik olduğunun düşmən tərəfindən rəsmi etirafıdır.

Beləliklə, Azərbaycan bu gün təkcə öz problemini həll etmir, həm də dünya birliyinə bir dərs verir, kimin həyata keçirməsindən asılı olmayaraq BMT qərarlarının mütləq yerinə yetirilməli olduğunu bəyan edir. Həm də təcavüzkar sülhlə yola gəlməyəndə problemin necə həll edildiyinin əyani nümunəsini ortaya qoyur.

İndi isə gəlin baxaq görək dünya birliyi dediyimiz BMT-nin ən yüksək orqanı olan Təhlükəsizlik Şurasının 27 il qabaq verdiyi 4 qətnamədə nə deyilir. İlk qətnamə Ermənistanın iddia etdiyi, ermənilərin kompakt yaşadığı keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyatlı olmayan, ermənilərin yaşamadığı Kəlbəcər rayonunun işğalına qarşı qəbul edilib və təcavüzkarın dərhal bütün işğal olunmuş Azərbaycan ərazilərindən qoşunlarını çıxarmasını tələb edir.

### BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi

30 aprel 1993-cü il tarixdə BMT TŞ Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanla Azərbaycan arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək, silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycanın Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək, eləcə də vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsizliyi qorxu altına aldığından narahat olaraq, çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə vəziyyətlə bağlı ciddi narahatlıq ifadə edərək, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM (indiki ATƏT)-red.) çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirərək və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək qərara alır:

**1.** Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

**2.** Bu işdə maraqlı olan tərəfləri münaqişənin ATƏM-in Minsk qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışığı bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir;

**3.** Bölgədə, o cümlədən münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngülləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

**4.** Baş katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin;

**5.** Bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin.

Göründüyü kimi, BMT TŞ-nin qətnaməsi dəqiq və aydındır. Lakin bu qtənamədən çox keçməmiş Ermənistan Azərbaycanın DQMV-yə aid olmayan, ermənilərin yaşamadığı daha bir rayonunu- Ağdamı işğal edir...

Bu artıq BMT-yə "rədd ol" deyərək beynəlxalq hüququ ayaqlamaq, dünya birliyinin üzünə tüpürmək idi. Həm də bütün ictimaiyyəti dünya qarşısında. Bundan sonra dünya birliyi nəsə etməli idi. Nə etdi?

***/davamı olacaq/***
***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

22 oktyabr

Son səhifə

# UEFA millimizin və “Qarabağ”ın ev oyunları ilə bağlı qərarını açıqladı

UEFA İcraiyyə Komitəsi Dağlıq Qarabağdakı gərgin vəziyyəti nəzərə alaraq, klub və milli komandaların matçlarının Azərbaycan və Ermənistanda keçirilməməsinə qərar verib. Avropa futbol qurumunun rəsmi saytında yer alan məlumatda deyilir ki, qərar növbəti bildirişədək qüvvədə olacaq.

Təhlükəsizliklə bağlı sentyabrın 27-dən yaranan vəziyyətin inkişafını ətraflı nəzərdən keçirdikdən sonra UEFA hər iki ölkədəki hazırkı şəraitin oyunların təşkili üçün uyğun olmadığı qənaətinə gəlib. Nəticədə AFFA və Ermənistan Futbol Federasiyasından beynəlxalq oyunlar keçirmək üçün alternativ yerlər təklif etmələri xahiş olunub. UEFA bəyan edib ki, regiondakı situasiya izləniləcək və İcraiyyə Komitəsinin bugünkü qərarı AVRO-2020-nin gələn ilin iyununda Bakıda nəzərdə tutulan oyunlarının cari planlaşdırılmasına təsir göstərməyəcək.

Qeyd edək ki, “Qarabağ” Avropa Liqasında ilk ev oyununu oktyabrın 29-da Tofiq Bəhramov adına Respublika stadionunda İspaniya “Vilyarreal”ına qarşı keçirməli idi. Azərbaycan millisi isə oktyabrın 13-də Kipri Albaniyada qəbul etməli olub. Növbəti ev oyunu noyabrın 14-də Bakı Olimpiya Stadionunda nəzərdə tutulmuşdu.

# “Barselona” klubu 4 futbolçusu ilə müqaviləni yeniləyib




İspaniyanın “Barselona” klubu 4 futbolçusu ilə müqaviləni yeniləyib. Klubun saytında yer alan məlumata görə, bunlar qapıçı Mark-Andre ter Ştegen, müdafiəçilər Jerar Pike, Kleman Lanqle və yarımmüdafiəçi Frenki de Yonqdur. Pike ilə 2024-cü, Ter Ştegenlə isə 2025-ci ilin yayınadək müqavilə imzalanıb. Hər iki futbolçunun təzminat haqqı 500 milyon avro qiymətləndirilib.

De Yonq və Lanqlenin müqaviləsi isə 2026-cı ilin yayınadək uzadılıb. De Yonqun təzminat qiyməti 400, Lanqlenin isə 300 milyon avrodur.

# Azərbaycanda quş növlərinin ovu dayandırıldı



Ölkədə hərbi vəziyyətin elan edilməsi, koronavirus pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin sərtləşdirilməsi nəzərə alınaraq vəhşi heyvan və quş növlərinin ovunun müvəqqəti dayandırılması məqsədilə Ov Məsələləri üzrə Elmi Koordinasiya Şurasının iclası keçirilib.

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyindən məlumat verilib. Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyasının, aidiyyəti dövlət qurumlarının, beynəlxalq təşkilatların və ictimai birliklərin nümayəndələrinin təmsil olunduğu iclasda Şura üzvlərinin yekdil fikri ilə 20 oktyabr 2020-ci il tarixindən vəhşi heyvan və quş növlərinin ovunun müvəqqəti dayandırılması qərara alınıb.

# Mərdəkan qəsəbə sakinini evindən altı kiloqramdan çox marixuana götürülüb

Mərdəkan qəsəbə sakinini evindən altı kiloqramdan çox marixuana aşkar edilərək götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, narkotik vasitə ilə tutulmuş N.Əhmədovun ətrafında Səbail Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə ona narkotik vasitəni satmış qrupun digər üzvü R.Şexov da müəyyən edilərək saxlanılıb.



Polis əməkdaşlarının onun Mərdəkan qəsəbəsindəki evində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan altı kiloqramdan artıq marixuana aşkarlanaraq götürülüb. Hadisə İlə bağlı Səbail Rayon Polis İdarəsində araşdırma aparılır.

# Həbib Nurməhəmmədov Jorj Sen-Pyer ilə döyüşmək istədiyini bildirib




***Rusiyalı UFC döyüşçüsü Həbib Nurməhəmmədov Castin Getji ilə qarşılaşmadan sonra kiminlə döyüşəcəyini açıqlayıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, rusiyalı döyüşçü Jorj Sen-Pyer ilə gücünü sınamaq istədiyini bildirib. Bundan əvvəl, o, Konor Makqreqor və Dastin Porye ilə döyüşmək istəmədiyini vurğulamışdı.***

Kanadalı Jorj Sen-Pyer 2002-ci ildə MMA yarışlarında döyüşlərə başlayıb və karyerası ərzində keçirdiyi 27 döyüşdə cəmi iki dəfə məğlub olub. O, UFC kəmərinin sahibidir.

H.Nurməhəmmədovla C.Getji arasında döyüş oktyabrın 24-də Əbu-Dabidə baş tutacaq. H.Nurməhəmmədov sonuncu döyüşünü 2019-cu ilin sentyabrında amerikalı Dastin Poryeyə qarşı keçirib və titulunu qoruyub. Yüngül çəkidə UFC-nin müvəqqəti çempionu C.Getji bu ilin mayında amerikalı Toni Ferqyusonu texniki nokautla məğlub edib.

# “Milan”da Hakan Çalkanoğlu şoku!



**İtaliya A Seriyasında mübarizə aparan “Milan”da Hakan Çalkanoğlu şoku yaşanır. Komanda ilə birgə təlim-məşq toplanışına qoşulan türkiyə millisinin üzvü hazırlıqdan qoltuq ağacı ilə ayrılmağa məcbur olub. Belə ki, 26 yaşlı futbolçu səhər baş tutan məşqlərdə sol ayağını zədələyib. İlk yoxlanışlarda ayağının burxulduğu aşkarlanan Çalkanoğlu məşqləri qoltuq ağacı ilə tərk etməyə məcbur olub.**

**Bu səbəbdən ulduz futbolçu oktyabrın 22-də saat 21:55-də baş tutacaq “Seltik”-”Milan” matçını buraxacaq. Türkiyəli futbolçu “Milan” formasında bu mövsüm 7 matça çıxaraq 4 qol vurub və 3 məhsuldar ötürmə edib.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**